

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 40 (934) ■ 24 oktyabr 2018 www.vergiler.az Qiyməti: 60 qəp.

# Türkiyə və Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır

## Prezident İlham Əliyev Türkiyə Respublikasında işgüzar səfərdə olub

**Oktyabrın 19-da Türkiyənin İzmir şəhərində «Star» neft emalı zavodunun açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.**



Dövlət başçıları əvvəlcə terrasdan «Star» neft emalı zavodunun ərazisini seyr ediblər, idarəetmə ofisi ilə tanış olublar. Prezidentlərə zavodda görülən işlər barədə məlumat verilərək bildirilib ki, «Star» zavodunun ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək və müəssisənin əsas xammal tədarükçüsü kimi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti - SOCAR çıxış edir. SOCAR-ın 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, «Petkim» neft-kimya kompleksinin ərazisində inşa etdiyi bu zavodda avqustdan etibarən sınaq məqsədilə xam neft emalına başlanılıb. Zavoda ilk neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton «Azeri Light» markalı neft çatdırılıb. Zavod 5 milyon ton dizel yanacağı istehsal etmək imkanına malikdir və Türkiyənin idxalının 40 faizə düşməsinə səbəb olacaq. Həmçinin mayeləşdirilmiş qazın idxal səviyyəsi də 70 faizə enəcək. «Star», neftin qiymətindən asılı olaraq, hər il 6-8 milyard dollarlıq ticarət həcmi formalaşdıracaq. Layihənin həyata keçirilməsi müddətində zavodda 19 min 500 işçi çalışıb, istehsala başlanandan isə burada 1100 nəfər yeni iş yeri ilə təmin ediləcək.

«Star» neft emalı zavodunda hər il 10 milyon ton xam neft emal ediləcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu, 420 min ton qarışıq ksilen və 160 min ton kükürd istehsal olunacaq. Zavod «Petkim» neft-kimya kompleksinin nafta və qarışıq ksilenə olan tələbatını tam ödəyəcək.

Onu da deyək ki, SOCAR 19,5 milyard dollarlıq investisiya paketi ilə Türkiyə tarixində ən böyük xarici sərmayəçidir. Bundan əlavə, «Star» neft emalı zavodu Türkiyədə özəl sektorun bir nöqtəyə qoyduğu ən böyük investisiya layihəsidir. Bu müəssisə Türkiyədə iqtisadiyyatın və sənayenin inkişafına töhfə verməklə strateji məhsulların istehsalında əhəmiyyətli rola malikdir. Belə ki, o, Türkiyənin idxaldan asılılığını azaltmaqla ölkə iqtisadiyyatına 1,5 milyard dollar əlavə gəlir qazandıracaq.

Xatırladaq ki, «Star» neft emalı zavodunun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

Açılış mərasimində çıxış edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev, Türkiyənin energetika və təbii sərvətlər naziri Fatih Dönməz, xəzinə və maliyyə naziri Berat Albayrak və Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım iki ölkə başçısının ağıl, iradə və güc birliyi sayəsində ərsəyə gələn bu möhtəşəm layihənin icrası münasibətilə təbriklərini çatdırıblar, Türkiyə-Azərbaycan işbirliyinin əbədi olacağına əminliklərini ifadə ediblər.

> Biz - iki dövlət, bir millət olaraq, öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, rifahı və zənginliyi üçün çalışırıq

**Davamı 2-ci səhifədə**

# Azərbaycan dövləti bölgələrin inkişafına xüsusi diqqətlə yanaşır

**Prezident İlham Əliyev oktyabrın 22-də İmişli rayonuna səfər edib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**



İmişli rayonuna səfəri çərçivəsində Araz çayının yeni qol-kanalının açılış mərasimində iştirak edən Prezident İlham Əliyev tədbirdə çıxış edib və kanalın açılışını bildirən düyməni basıb. Sonra dövlətimizin başçısı Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun 112 kilometrlik Qaraçala-Bəhrəmtəpə hissəsinin, İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun, «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin İmişli Avtomatik İdarəetmə və Nəzarət Mərkəzinin, Bayraq Muzeyinin, 100 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

Daha sonra «ASAN Həyat» kompleksinin açılışında iştirak edən Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsib. Bildirilib ki, İmişli kompleksi Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 14-cü mərkəzidir. Şəhərin Heydər Əliyev prospektində yerləşən, öz möhtəşəmliyi ilə seçilən kompleksin tikintisinə 2017-ci ildə başlanılıb, inşaat işləri bu ilin fevralında başa çatdırılıb. Kompleks dördmərtəbəli inzibati binadan və «ASAN park» istirahət guşəsindən ibarətdir. Qeyd olunub ki, bu mərkəz İmişli, Saatlı, Biləsuvar, Beyləqan, Zərdab və Füzuli rayonlarında qeydiyyatda olan 624 mindən çox vətəndaşa xidmət göstərəcək. Qeyd edək ki, bu günə kimi «ASAN xidmət» mərkəzlərinə daxil olan müraciətlərin sayı 25 milyona yaxındır.

Dövlətimizin başçısı kompleksə daxil olan «ASAN Peşə» ilə tanış olub. Məlumat verilib ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bu layihəsi ixtisaslı kadrların hazırlanması və onların əmək bazarının dəyişən tələblərinə uyğun rəqabət qabiliyyətinin artırılmasını təmin etmək məqsədi daşıyır. «ASAN Peşə» Mərkəzi bütün növ zəruri avadanlıqlar, təlim və tədris vəsaitləri ilə təchiz olunub. İmişli «ASAN xidmət» Mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Eyni zamanda, mərkəzdə funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcək. Mərkəzdə çalışacaq əməkdaşların sayı 184, könüllülərin sayı isə 45 nəfərdir. Burada Uşaq Psixo-Sosial İnkişafı Mərkəzinin bölməsi də yaradılıb. Bu bölmədə 3-12 yaşlı uşaqların psixoloji və sosial inkişafına dəstək məqsədilə müxtəlif xidmətlər göstərilir. Mərkəzin 4 saylı Bakı «ASAN xidmət» və Quba, Sabirabad, Masallı, Qəbələ, Mingəçevir regional «ASAN xidmət» mərkəzlərində də bölmələri fəaliyyət göstərir. İmişli «ASAN xidmət» Mərkəzində ilk dəfə olaraq «ASAN Vəkil» bürosu yaradılıb. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Vəkillər Kollegiyası arasında əldə olunan razılığa əsasən, «ASAN xidmət» və «ASAN Kommunal» mərkəzlərində səyyar hüquqi yardım xidmətləri sosial innovasiyaların tətbiqi ilə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri rəhbər tutulmaqla göstəriləcək.

Prezident İlham Əliyev mərkəzdə innovativ yeniliklərlə də tanış olub. Robot «Sofiya» dünyada ilk süni intellektli humanoid robotdur. Bu robot 2015-ci ildə «Hanson Robotiks» şirkəti tərəfindən hazırlanıb və süni intellekt əsasında insanla ünsiyyət saxlaya, fikir mübadiləsi apara bilir. Robotun əsas fərqləndirici xüsusiyyətlərindən biri də insana məxsus 60-dan çox emosiyanı əks etdirməsidir. «Sofiya» bu günə qədər dünyada bir çox məşhur simalarla görüşüb, tanınmış televiziya kanallarında, xəbər proqramlarında və teledebatlarda iştirak edib. Dövlətimizin başçısı robot «Sofiya» ilə söhbət edib.

Yeni layihələrdən biri də «ASAN Railway taksi» xidmətidir. Bu, əsasən turistlər üçün nəzərdə tutulmuş dəmir yolu reysləri üzərində innovativ taksi sistemidir. Prezident İlham Əliyevə «Sağlamlığın ağıllı təhlili» layihəsi barədə də məlumat verilib. Bu avadanlıq və proqram təminatı vasitəsilə hər bir şəxs olduğu məkanda öz sağlamlıq vəziyyəti barədə göstəricilərlə tanış ola bilər, həkim məsləhətləri və sağlamlığa dair tövsiyələr ala bilər. Həmçinin uzaqdan diaqnozun qoyulması, tibbi məlumatların yaddaşda saxlanılması da göstərilən xidmətlər sırasındadır. Dövlətimizin başçısı «ABAD» publik hüquqi şəxsin yeni saytı - www.abad.gov.az-ın fəaliyyəti ilə də tanış olub. Prezident İlham Əliyevə növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan «ASAN xidmət» mərkəzlərinin layihələri də təqdim olunub. Mərkəzdə «ABAD»ın sərgi salonu da fəaliyyət göstərəcək. Qeyd edək ki, əsas məqsədi ölkənin sosial-iqtisadi tərəqqisində vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan «ABAD» rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosialyönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir.

İmişli kompleksində Gənc İstedadlar Teatrı da fəaliyyət göstərəcək. Prezident İlham Əliyev burada «ASAN xidmət» könüllülərinin səhnələşdirdiyi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan «Kölgə» tamaşasını izləyib, könüllülərlə şəkil çəkdirib.

## Rəsmi xronika

- Prezident İlham Əliyev oktyabrın 23-də Rusiya Federasiyasının daxili işlər naziri Vladimir Kolokoltsevi qəbul edib. Dövlətimizin başçısı bu səfəri əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirərək, iki ölkənin daxili İşlər nazirlikləri arasında qarşılıqlı fəaliyyətin yüksək səviyyədə olduğunu qeyd edib. Azərbaycan ilə Rusiyanın dost ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin bütün istiqamətlərdə fəal əməkdaşlıq həyata keçirdiyini bildirib. Dövlətimizin başçısı, bu baxımdan, hər iki ölkənin daxili İşlər nazirlikləri arasında çox səmərəli əməkdaşlığın həyata keçirilməsindən məmnunluğunu ifadə edib. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, ötən ay Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana səfəri zamanı, digər məsələlərlə yanaşı, hüquq-mühafizə orqanları arasında əlaqələr də müzakirə edilib və bu sahədə əməkdaşlıqdan məmnunluq ifadə olunub. Qəbula görə minnətdarlığını bildirən Vladimir Kolokoltsev qeyd edib ki, dövlət başçıları arasında son bir ildə 5 görüşün keçirilməsi bu münasibətlərin inkişaf strategiyasının bundan sonra da möhkəmləndirilməsinin vacib olduğunu göstərir. Eyni zamanda, Aktau şəhərində Xəzəryanı dövlətlərin başçıları tərəfindən imzalanmış sənədlər də hüquq-mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti üçün bir təkan rolu oynayıb. Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.
- Oktyabrın 21-də dövlətimizin başçısı Asiya İnkişaf Bankının vitse-prezidenti Vençay Janqı qəbul edib. Dövlətimizin başçısı qarşılıqlı əməkdaşlıq səviyyəsindən məmnunluğunu qeyd edərək, bankın Azərbaycanın iqtisadi layihələrinə göstərdiyi dəstəyin əhəmiyyətini vurğulayıb. Cənub Qaz Dəhlizinə Asiya İnkişaf Bankı tərəfindən 1 milyard dollardan çox kredit ayrıldığını deyən Prezident İlham Əliyev bankın bu layihəyə maliyyə dəstəyi göstərən ilk beynəlxalq bank olduğunu xüsusi vurğulayıb. Əməkdaşlığımızın bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə edən dövlətimizin başçısı Asiya İnkişaf Bankının vitse-prezidentinin ölkəmizə səfərinin görülən işlərin və gələcək layihələrin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib. Xoş sözlərə görə minnətdarlığını ifadə edən Vençay Janq Azərbaycanın son illərdə makroiqtisadi sabitliyin gücləndirilməsi istiqamətində əldə etdiyi nailiyyətləri vurğulayıb, dayanıqlı iqtisadi inkişafın təmin edilməsinə yönəlmiş Strateji Yol Xəritəsinin həyata keçirilməsinə bank tərəfindən hərtərəfli dəstək verilməsinə hazır olduqlarını bildirib.

Vergilər naziri Rusiya Federal Vergi Xidmətinin rəhbəri ilə görüşüb — səh. 2

Aksiz postlarının fəaliyyətinin ilkin nəticələri açıqlanıb — səh. 2

Vergilər Nazirliyi məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq standartların tətbiqini genişləndirir — səh. 3

Azərbaycan və Türkiyənin birgə regional fəaliyyəti genişlənir — səh. 5

# Türkiyə və Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsini yenidən cızır

**Əvvəli 1-ci səhifədə**

Tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, bu gün Türkiyə-Azərbaycan tarixində çox gözəl və əlamətdar bir hadisə baş verir: «Xatırlayıram ki, 7 il bundan əvvəl əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla burada, Əliağada «Star»ın təməlini qoyduq və bu gün bu nəhəng layihənin açılışını bərabər edirik. Bu, bir daha onu göstərir ki, biz qarşımıza qoyduğumuz bütün hədəflərə uğurla çatırıq. Bir daha onu göstərir ki, belə nəhəng layihələrin icrası üçün Türkiyə və Azərbaycan liderlərində güclü siyasi iradə var. Bu layihənin həyata keçməsinin əsas səbəbi Türkiyə-Azərbaycan dostluğu, qardaşlığıdır». Dövlətimizin başçısı bildirib ki, bu gün Azərbaycan və Türkiyə dünya miqyasında qardaşlıq, həmrəylik nümunəsi göstərirlər: «Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə bağlı olsunlar. Bu, bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk. «Star Rafinery»nin yaradılması üçün Azərbaycan 6,3 milyard dollar yatırım edib. Növbəti mərhələdə əlavə 700 milyon dollar yatırım ediləcəkdir. Bu, bizim xaricə qoyduğumuz ən böyük yatırımımızdır və bu, təbiidir. Eyni zamanda, biz digər önəmli layihələri birlikdə həyata keçirdik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP neft-qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun yaradılması - bunların hər biri özlüyündə nəhəng bir layihədir və nəinki ölkələrimiz, xalqlarımız üçün, bölgə, dünya, Avrasiya üçün çox böyük önəm daşıyır».

Mərasimdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, biz bu gün «Star» neft emalı zavodunun açılışı ilə dünyaya örnək olan əlaqələrimizi bir addım da inkişaf etdiririk: «Azərbaycan ilə əlaqələrimizi təkcə cəsarət, təkcə siyasət miqyasında deyil, güclü iqtisadi çərçivədə davam etdiririk. Bu müəssisə enerji sahəsində həmrəyliyimizi gücləndirmək üçün uzun müddət gördüyümüz işlərin ən mühüm və konkret örnəklərindən biridir. Daha əvvəl Bakı-Tbilisi-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəməri layihələrini həyata keçirmişdik. Bu ilin iyununda hər biri xüsusi əhəmiyyətə malik bu strateji layihələrə regional və qlobal miqyasda nüfuza sahib olacaq TANAP-ı da əlavə etdik.

İndi açılışını etdiyimiz «Star» neft emalı zavodu ilə Azərbaycanla qardaşlıq əlaqələrimizin strateji miqyasını daha da gücləndirmiş oluruq. Türkiyə və Azərbaycanın liderliyi ilə həyata keçirdiyimiz hər bir layihə ölkələrimizin regional gücə çevrilmək qabiliyyətini qüvvətləndirməkdədir. Dünyanın ticarət müharibələri və böhranlarla sarsıldığı bir dövrdə bir-bir açılışını etdiyimiz bu layihələrin ölkələrimizi həm ayrılıqda öz qayələrinə, həm də ortaq hədəflərinə yaxınlaşdırdığına inanıram».

Türkiyənin dövlət başçısı vurğulayıb ki, bu zavod Türkiyənin ən böyük enerji layihəsidir. Bu baxımdan, neft məhsulları idxalında hər il 1,5 milyard dollar məbləğində qənaət edilməsi, neft məhsullarında xaricdən asılılığın azalması hədəflənir: «Biz - iki dövlət, bir millət olaraq, öz ölkələrimizlə yanaşı, bölgədəki bütün xalqların təhlükəsizliyi, sabitliyi, rifahı və zənginliyi üçün çalışırıq. Ürəkdən istərdik ki, bölgədəki hər bir ölkə bu səmimiyyəti görə bilsin. Aralıq dənizinin şərq hissəsindəki karbohidrogen ehtiyatları ilə bağlı birtərəfli qaydada baş verən uğursuzluğa məhkum müxtəlif təşəbbüslərdən təəssüf edirik. Bu vəziyyət bölgəmizdə hələ də qeyri-sabitlikdən və gərginlikdən istifadə etmək siyasətindən əl çəkmək istəməyənlərin olduğunu göstərir. Türkiyə olaraq belə cəhdlərə qarşı cavabımızı həm bu yerdən, həm də diplomatik sahədə ən sərt şəkildə verməyi davam etdirəcəyik. Ölkəmizi və qardaşlarımızı nəzərə almayan heç bir təşəbbüsün uğur qazanmaq şansı olmadığını bütün tərəflər görəcəklər. Dostluğa, həmrəyliyə, birlikdə qazanmağa istiqamətlənmiş hər bir təklifə açıq olduğumuzu buradan bir daha bildirmək istəyirəm».

Qardaş ölkənin dövlət başçısı bəyan edib ki, Türkiyə və Azərbaycanın bölgənin təhlükəsizliyinin və sabitliyinin əsas faktorları olduğu artıq hamı tərəfindən qəbul edilməyə başlanıb. Bu iki ölkənin qoşulmadığı, razı olmadığı və dəstək vermədiyi heç bir layihə hədəfinə çata bilməz: «Bununla yanaşı, Azərbaycan torpaqlarının 20 faizinin işğal altında qalması qəbul edilə bilməz. Ölkəmizin və Azərbaycanın bu münaqişənin həlli istiqamətində göstərdiyi təşəbbüslərə beynəlxalq ictimaiyyət daha səssiz qala bilməz. BMT başda olmaqla regional və qlobal problemlərin həlli üçün qurulan təşkilatların bu səssizliyi onların özlərini də məhvə sürükləyir. Haqq-ədalət duyğusundan uzaq, içi boş olan beynəlxalq qurumun heç bir cəmiyyətin və şəxsin gözündə etibarı qalmaz. Biz, beynəlxalq ictimaiyyətin Qarabağ məsələsi başda olmaqla dünyada ortaya çıxan haqsızlıqlara «Dur!» deməsini gözləyirik. Sabitliyin, əmin-amanlığın, rifahın təmin olunması qaydaları istisnasız bütün dövlətlər üçün tətbiq edilməsə, kimsə gələcəyinə əminliklə baxa bilməz. Türkiyə və Azərbaycan olaraq biz istənilən vəziyyətdə və şərtlər altında inandığımız dəyərlər uğrunda apardığımız birgə mübarizəni davam etdirəcəyik. Allahın izni ilə bu müqəddəs mübarizəmizdə müvəffəqiyyət qazanacağıq».

Sonra dövlət başçıları zavodun açılışını ediblər.

## Vergilər naziri Rusiya Federal Vergi Xidmətinin rəhbəri ilə görüşüb

Oktyabrın 22-də vergilər naziri Mikayıl Cabbarov Moskva şəhərində Rusiyanın Federal Vergi Xidmətinin rəhbəri Mixail Mişustinlə görüşüb.



Görüşdə iki ölkənin vergi orqanları arasında əməkdaşlıq və təcrübə mübadiləsi ilə bağlı məsələlər müzakirə olunub. Tərəflər vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində hər iki ölkədə son illər həyata keçirilmiş islahatlar barədə fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, hazırda dünya vergi orqanlarının prioritet fəaliyyət istiqamətlərindən biri vergi inzibatçılığında informasiya texnologiyalarının daha geniş tətbiqinə nail olmaqdır. Bu mənada, hər iki ölkədə rəqəmsal texnologiyaların tətbiqi sahəsinə xüsusi diqqət yetirilir.

Görüşdə Federal Vergi Xidmətinin yüksək vəzifəli şəxsləri Rusiyanın vergi inzibatçılığında rəqəmsal texnologiyalar sahəsində tətbiq olunan son yeniliklərlə bağlı təqdimatlarla çıxış ediblər.

Azərbaycanın Vergilər Nazirliyi və Rusiya Federal Vergi Xidmətinin yüksək vəzifəli şəxslərinin iştirak etdiyi görüşdə tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparıblar.

## Aksiz postlarının fəaliyyətinin ilkin nəticələri açıqlanıb

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı vergidən yayınma hallarına son qoyulması, bu sahədə qətiyyətli tədbirlərin həyata keçirilməsi, şəffaflığın təmin edilməsi və vergilərin tam şəkildə dövlət büdcəsinə ödənilməsi ilə bağlı tapşırıqlar verib. Eyni zamanda, alkoqollu içkilər istehsal edən müəssisələrdə istehsal və satış proseslərinin uçotunun aparılmasının, aksiz markalarından istifadə edilməsinin təmin olunması ilə bağlı da göstərişlər verilib.

Vergilər Nazirliyi tərəfindən alkoqollu içkilərin istehsalı və satışı ilə məşğul olan müəssisələrdə keçirilən monitorinqlər, həmçinin vergi nəzarəti tədbirləri zamanı bu sahədə ciddi qanun pozuntularının olması, o cümlədən cinayət tərkibli əməllərə yol verilməsi, alkoqollu içkilərin böyük həcmdə qanunsuz dövriyyəsinin və külli miqdarda vergidən yayınma hallarının mövcud olması ilə bağlı faktlar qeydə alınıb. Təkcə 2018-ci ilin aprel-sentyabr aylarında aparılmış nəzarət tədbirləri zamanı pərakəndə ticarət obyektlərindən 27.900 şüşə aksizsiz və ya saxta aksizli mallar aşkar edilərək müsadirə olunub, alkoqollu içkilərin satışında 619 min manatdan çox nağd əməliyyat aparıldığı müəyyən edilib (qanunvericiliyə əsasən, aksiz markası ilə markalanmalı məhsulları, pərakəndə satış istisna olmaqla, nağd qaydada xeyli miqdarda satma, belə məhsulları satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda alma cinayət məsuliyyəti yaradır) və qanun pozuntuları ilə bağlı 34 cinayət işi başlanılıb.

Məlumat verildiyi kimi, qanun pozuntusu hallarının qarşısının alınması məqsədilə bu ilin avqust ayından alkoqollu içkilərin istehsalı ilə məşğul olan 30 vergi ödəyicisində aksiz-nəzarət postları fəaliyyətə başlayıb. Aksiz postlarının tətbiqi nəticəsində qanunsuz məhsulların daxili bazarda satışının qarşısının alınması, vergi ödəyicilərinin fəaliyyətində uçotun və nəzarətin bərpa edilməsi nəticəsində müəssisələrin istehsal və satış həcmləri ilə bağlı real mənzərə müəyyən olunmağa başlayıb. Xüsusilə arağın istehsal və daxili bazarda satış həcmlərində 3 dəfə artım qeydə alınıb. Şərab satışı isə əksinə, 2018-ci ilin yanvar-iyul aylarının orta aylıq göstəricilərinə nisbətən azalıb.

Aksiz-nəzarət postlarının tətbiqi dövlət büdcəsinə hesablanan vergilərin məbləğində öz əksini göstərir: spirtli içkilərin öz təyinatına uyğun bəyan edilməsi nəticəsində cari ilin orta aylıq və iyul ayı göstəriciləri ilə müqayisədə istehsalçılar tərəfindən hesablanmış aksiz vergisi və ödənilmiş vergi məbləği 60%-dən çox artıb.

Yaranmış vəziyyətlə əlaqədar Vergilər Nazirliyi İqtisadiyyat və Kənd Təsərrüfatı nazirliklərini məlumatlandırıb. Sentyabrın 22-də Vergilər, İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri Qida Təhlükəsizliyi Agentliyi ilə birlikdə iri şərabçılıq şirkətləri ilə görüş keçiriblər. Görüşdə bu sahədə mövcud vəziyyət, uçot sisteminə nəzarətin gücləndirilməsi məsələləri müzakirə edilib, daxili bazarda yerli istehsalçıların mövqelərinin qorunması üçün qanunvericilikdə dəyişikliklərlə bağlı təkliflər dinlənilib. Müzakirələr zamanı irəli sürülmüş təkliflər hökumətə təqdim olunub.

Bununla yanaşı, Vergilər Nazirliyi spirtli içki istehsalçılarına və satıcılarına bir daha xəbərdarlıq edərək, onları aksiz markası olmadan, yaxud saxta aksiz markası ilə markalanmış məhsulların satışını dərhal və könüllü şəkildə aradan qaldırmağa, qeydiyyatda olduqları vergi orqanına vergidən yayınmaların həcmi barədə məlumat verməyə çağırır. Bu halda, könüllü bəyanetmə qanun pozuntusu üçün nəzərdə tutulmuş məsuliyyətin müəyyənləşdirilməsi zamanı yüngülləşdirici hal kimi nəzərə alınacaq. O da diqqətə çatdırılır ki, bütün topdan və pərakəndə satış əməliyyatları mütləq qaydada elektron vergi hesab-fakturaları vasitəsilə rəsmiləşdirilməlidir.

Vergilər Nazirliyi xatırladır ki, aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı, aksiz markalarının saxtalaşdırılması, istehlak bazarına qeyri-qanuni istehsal olunmuş məhsulların çıxarılması qanunvericiliklə qadağandır və vergi orqanları belə halların qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb olunması istiqamətində tədbirləri davam etdirəcək.

## Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi diqqət mərkəzindədir

**«MasterCard Worldwide» beynəlxalq kart təşkilatı Azərbaycanda nağdsız ödənişlərin inkişafı üçün lazım olan dəstəyi davam etdirir. Bu barədə Vergilər Nazirliyində «MasterCard» nümayəndələri ilə keçirilən görüşdə bildirilib. Qeyd olunub ki, təşkilat nağdsız ödəniş sisteminin genişləndirilməsinə dair strateji çərçivələrin hazırlanması, qabaqcıl texnologiyaların ölkəmizə gətirilməsi baxımından, Mərkəzi Bankla yanaşı, Vergilər Nazirliyi ilə də yaxından əməkdaşlıq edəcək.**

Tədbirdə «MasterCard»la Vergilər Nazirliyi arasında əməkdaşlıq imkanları, o cümlədən Azərbaycanda kart ödənişlərinin artırılması və nağdsız iqtisadiyyatın inkişafı üzrə strateji tərəfdaşlıq istiqamətlərinə dair məsələlər müzakirə edilib. Vergilər nazirinin müavini İlkin Vəliyev «2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı»na dair Tədbirlər Planında Vergilər Nazirliyinə həvalə olunmuş işlərin icra vəziyyətindən danışıb. Bildirilib ki, nazirlik nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi üzrə siyasət sənədlərini hazırlayaraq Mərkəzi Banka təqdim edib. Bununla yanaşı, vergitutma mexanizminin sadələşdirilməsi, vergi yükünün optimallaşdırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi sistemində şəffaflığın və hesabatlılığın artırılması və digər istiqamətlərdə mühüm addımlar atılıb. Qeyd olunub ki, Vergilər Nazirliyi ölkədə nağdsız hesablaşmaların inkişafına və əhatə dairəsinin genişləndirilməsi məqsədilə bu sahədə beynəlxalq tendensiyaları da diqqət mərkəzində saxlayır.

«MasterCard»ın dövlət qurumları ilə iş üzrə direktoru Süleyman Sözeri Azərbaycan Mərkəzi Bankının moderatorluğu ilə həyata keçirilən «Nağdsız Azərbaycan» Proqramı çərçivəsində Azərbaycanda nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi istiqamətində aidiyyəti dövlət qurumları ilə birgə görə biləcəkləri işlərdən, təmsil etdiyi təşkilatın əldə etdiyi təcrübələrdən danışıb.

Görüşdə nağdsız ödəniş sisteminə keçidin texnoloji təminatından da bəhs edilib. Tərəflər Azərbaycanı nağdsız ödəniş sahəsində regionun lideri və «MasterCard»ın ən mütərəqqi texnologiyalarını tətbiq edən ilk ölkə kimi görmək istədiklərini, Mərkəzi Bankla birgə hazırlanan və ölkədə nağdsız transformasiya strategiyasının yaradılmasına yönəldilən «Nağdsız Azərbaycan» layihəsinin əhəmiyyətini xüsusi vurğulayıblar. Bu layihə çərçivəsində Mərkəzi Bankla birlikdə pilot təşəbbüs kimi seçilmiş Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödənişlərin istifadəsinin stimullaşdırılması məqsədilə istehlakçılar və təsərrüfat subyektləri üçün təşkil etdiyi stimullaşdırıcı tədbirlər də iştirakçıların diqqət mərkəzində olub. Qeyd olunub ki, artıq Naxçıvanda əhali arasında nağdsız ödənişlərin artırılmasına geniş dəstək göstərilir. Həmin pilot layihənin müsbət nəticə verəcəyi və yaxın vaxtlarda əhatə dairəsinin daha da genişlənəcəyinə inam ifadə olunub.

Bildirilib ki, nağdsız hesablaşmaların artırılması sahəsində irəliləyişə nail olmaq üçün «kölgə iqtisadiyyatı»nın azaldılması, elektron ödəniş infrastrukturunun inkişaf etdirilməsi vacib şərtlərdəndir. Bu baxımdan, innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi, elektron ödəniş xidmətlərinin institusional bazasının gücləndirilməsi, əhali və iqtisadi subyektlərin elektron ödəniş xidmətlərindən istifadəyə cəlb edilməsi xüsusi önəm daşıyır. Çünki ikili mühasibat və bütövlükdə «kölgə iqtisadiyyatı»nın yüksək olduğu şəraitdə nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi zamanı ciddi problemlər ortaya çıxır. Odur ki, nağdsız ödəniş sisteminə keçid üçün sahibkarlıq fəaliyyətində uçot və qeydiyyat, şəffaflıq və hesabatlılıq əsas prinsiplər sırasındadır.

Görüşdə Vergilər Nazirliyi ilə «MasterCard» arasında əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri və ölkədə ödəniş kartları infrastrukturunun inkişaf etdirilməsinə dair məsələlər də müzakirə olunub. «MasterCard»ın nümayəndələri hazırkı qlobal trendlər, Azərbaycanda nağdsız ödənişin genişləndirilməsinin perspektivləri, ölkədə uçot və qeydiyyat sisteminin təkmilləşdirilməsi, vergi nəzarəti tədbirlərinin effektivliyinin artırılması istiqamətində öz mümkün təsir imkanları barədə təkliflərini veriblər.

Sonda «MasterCard» təmsilçiləri səmimi qəbula görə Vergilər Nazirliyinin rəhbərliyinə minnətdarlıq ediblər, fəaliyyətlərində uğurlar arzulayıblar. Qonaqlar nağdsız ödənişlərin genişləndirilməsi sahəsində Azərbaycanın dövlət orqanları, o cümlədən Vergilər Nazirliyi ilə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

**Elxan SALAHOV**

## Vətəndaş müraciətləri diqqətlə araşdırılır

2018-ci ilin 9 ayı ərzində vergi orqanlarına daxil olmuş 71.583 müraciətin 91,2%-i ərizə, 8,5%-i şikayət, 0,2%-i isə təklif xarakterli olub.

Ümumilikdə, ötən ilin müvafiq dövrü ilə müqayisədə müraciətlərin sayı 4,4% azalıb. Daxil olmuş müraciətlər müxtəlif arayışların alınması; kameral vergi yoxlamaları; vergi borcları; vergidən yayınma, qanunsuz sahibkarlıq fəaliyyəti, nağd hesablaşmaların aparılması qaydalarının pozulması; vergi qanunvericiliyinin tətbiqi; səyyar vergi yoxlamaları və sair məsələlərlə bağlı olub.

Baxılmış müraciətlərdən 70,6%-i tam, 0,4%-i qismən müsbət həll olunub, 24,7%-i barədə müvafiq izahatlar verilib, 1,9%-i baxılmamış saxlanılıb, 1,6%-i əsassız hesab olunub, 0,6%-i aidiyyəti üzrə göndərilib, 0,1%-i ilə bağlı icraata xitam verilib. Müsbət həll olunmuş müraciətlərin 49%-i müxtəlif arayışların alınması, 22,3%-i kameral vergi yoxlamaları, 11,4%-i vergi borcları, qalanları isə digər məsələləri əhatə edib.

2018-ci ilin 9 ayı ərzində vergi orqanlarının aidiyyəti struktur bölmələrinin və vahidlərinin rəhbərləri və digər vəzifəli şəxsləri tərəfindən ümumilikdə 3.136 vətəndaş qəbul edilib.

### RƏQƏMLƏRİN DİLİ İLƏ

**2018-ci ilin yanvar-sentyabr aylarında:**

- Azərbaycandan MDB ölkələrinə **727 milyon 715 min** ABŞ dolları dəyərində məhsul ixrac edilib, həmin ölkələrdən respublikamıza idxal olunan məhsulun dəyəri isə 1 milyard **978 milyon 318 min** dollar təşkil edib.
- Respublikamızdakı magistral qaz kəmərləri ilə **16 milyard 806,1 milyon** kubmetr təbii qaz, neft kəmərləri ilə isə **30 milyon 881,7 min** ton neft nəql olunub.
- Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala **10.148,7 milyon** manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,5% az vəsait yönəldilib.
- Azərbaycan ilə Moldova arasında ticarət dövriyyəsinin həcmi **4 milyon 283 min** dollardan çox olub və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə yarım milyon dollardan çoxdur.

# Vergilər Nazirliyi məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq standartların tətbiqini genişləndirir



Müsahibimiz Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsində və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsində yaxından iştirak edən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Qlobal Əlaqələr Katibliyinin Avrasiya bölməsinin rəhbəri Vilyam Tomsondur

**- Cənab Tomson, Azərbaycanla OECD arasında mövcud əməkdaşlıq münasibətlərini necə qiymətləndirirsiniz?**

- Azərbaycanla təşkilatımız arasında münasibətlərin tarixi artıq 25 ili əhatə etsə də, ikitərəfli əməkdaşlığımız son illərdə daha da möhkəmlənərək yeni mərhələyə qədəm qoymuşdur. Hazırda Azərbaycan Mərkəzi Asiya və Şərqi Avropa üzrə OECD-nin Anti-Korrupsiya Şəbəkəsinin fəal üzvü kimi mühüm rol oynayır. İstanbul Fəaliyyət Planı çərçivəsində əməkdaşlıq biznes, maliyyə, institusional islahatlar sahələrində daha da dərinləşib. Bunlardan əlavə, Azərbaycan OECD-nin Rəqabətlilik üzrə Regional Mərkəzi və Rəqabətlilik üzrə Qlobal Forumu ilə fəal əməkdaşlıq edir və bu, ölkə qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılmasına, idarəetmənin təkmilləşdirilməsinə, iqtisadiyyatda şəffaflığın təmin olunmasına öz töhfəsini verir. Əlaqələrin digər bir istiqaməti ətraf mühit siyasətini əhatə edir. OECD Azərbaycanda mədən yanacağına dair subsidiyaların verilməsinin təkmilləşdirilməsi, su təsərrüfatında səmərəliliyin təşkili, ekoloji tarazlığın bərpası və «yaşıl iqtisadiyyat» göstəricilərinin inkişaf etdirilməsi sahələrində islahatların aparılmasına öz dəstəyini verir. Təhsil sektorunu əhatə edən layihə çərçivəsində isə «Şagirdlərin qiymətləndirilməsi» proqramı həyata keçirilir. Dünyada geniş yayılmış bu araşdırma metodu üç ildən bir olmaqla, yuxarı sinif şagirdlərinin riyaziyyat və digər elmlər üzrə biliklərini, tədrisi mənimsəmə qabiliyyətini ölçməklə təhsil sisteminin ümumi vəziyyətini qiymətləndirməyə imkan verir. Biz İnkişafa Yardım Komitəsinin köməyi ilə iqtisadi və hüquqi islahatlara dəstək veririk. Komitə Azərbaycan Beynəlxalq İnkişaf Agentliyi ilə birgə son illərdə qanunvericiliyin təkmilləşdirilməsinə, islahatların genişləndirilməsinə və digər inkişaf tədbirlərinə yardım göstərir.

Avrasiya Rəqabətlilik Proqramı çərçivəsində Azərbaycanda kiçik və orta sahibkarlıq subyektləri ilə əməkdaşlığımız mühüm yer tutur. Əsas fəlsəfəsi kiçik və orta biznesin inkişafına dəstək göstərmək olan həmin proqram Azərbaycanda kiçik və orta sahibkarlığın rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində aparılan islahatların və iqtisadi diversifikasiyanın dəstəklənməsinə dəstək göstərir. Layihə çərçivəsində investisiyanın təşviqi və asanlaşdırılması, xarici investorlar ilə əlaqələrin genişləndirilməsi, kiçik və orta sahibkarlıq strategiyalarının, fəaliyyət planlarının monitorinqinin aparılması və qiymətləndirilməsi sahəsində beynəlxalq təcrübənin mənimsənilməsi, iqtisadi islahatların səmərəliliyinin monitorinqi, biznes sektorunda aparılan tədbirlərin qiymətləndirilməsi və təhlili nəzərdə tutulub.

**- Yaxın günlərdə keçiriləcək OECD-nin Avrasiya Rəqabətlilik Proqramı çərçivəsində «Eurasia Week» beynəlxalq tədbirində Azərbaycanın da iştirakı nəzərdə tutulur. Tədbirdə hansı məsələlər müzakirə ediləcək?**

- OECD-nin bu il Avrasiya Rəqabətlilik Proqramı çərçivəsində təşkil edəcəyi «dəyirmi masa»nı iqtisadiyyat üzrə nüfuzlu ekspertlər üçün biznes və rəqabətlilik, müasir islahatlar və digər mövzularda çıxış və təcrübə mübadiləsi aparmaq baxımından geniş platforma hesab etmək olar. Tədbirin əsas mövzularından biri kiçik və orta sahibkarlığın, özəl sektorun inkişafı məsələləridir. Bu sahədəki vəziyyətlə bağlı ekspertlərin rəy və təklifləri dinləniləcək. Tədbirin Azərbaycan üçün əhəmiyyətinə gəlincə, ölkəniz həmin proqramlarda 10 ilə yaxın bir müddətdə iştirak etsə də, «dəyirmi masa»da geniş ekspert heyətinin müzakirələrinə ilk dəfə qatılacaq. Bu, islahatlar aparan respublika üçün olduqca mühümdür. «Eurasia Week»də, adətən, müvafiq dövlət orqanlarının nümayəndələri iştirak edir. Tədbirdə Azərbaycanı İqtisadiyyat Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, digər dövlət qurumlarının, özəl sektorun nümayəndələrinin təmsil etməsi nəzərdə tutulub. Azərbaycanla bağlı proqram iki hissədən ibarətdir:

- birincisi, «Azərbaycanda kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»nin həyata keçirilməsinin vəziyyətinin müzakirə edilməsi;
- ikincisi, Azərbaycanda xarici sərmayəçilər üçün yaradılmış investisiya mühiti, kiçik və orta müəssisələr arasında biznes əlaqələrinin inkişaf etdirilməsi barədə vəziyyətin müzakirəsi.

Hər iki məsələdə maraqlı ekspert baxışları olacaq və Azərbaycan tərəfinin müzakirələrdə fəal iştirakına ümid edirik.

> **“Qabaqcıl innovasiyalara açıq olan Azərbaycanın vergi sistemi OECD ilə müasir texnologiyaların tətbiqi sahəsində davamlı işlər həyata keçirir**

**- OECD «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»a üzv olmuş Azərbaycanın vergi administrasiyasında tətbiq edilən şəffaflıq və məlumat mübadiləsi standartlarını yüksək qiymətləndirib. Təmsil etdiyiniz təşkilatın Vergilər Nazirliyi ilə həmin sahədə əməkdaşlığının gələcək istiqamətlərini necə görürsünüz?**

- Azərbaycanın vergi administrasiyası qeyd etdiyiniz Qlobal Forumda fəal iştirak edir. Vergilər Nazirliyi Foruma üzv ölkə kimi məlumat mübadiləsi və şəffaflıq sahəsində beynəlxalq standartların praktiki tətbiqini genişləndirir. Bu siyasət vergi qanunvericiliyinin təkmilləşdirilməsi və qabaqcıl ölkələrin vergi qanunvericiliyi ilə uzlaşdırılması, vergi sistemində ən mütərəqqi yeniliklərin tətbiq olunması, bu istiqamətdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi baxımından çox vacibdir. Qabaqcıl innovasiyalara açıq olan Azərbaycanın vergi sistemi OECD ilə müasir texnologiyaların tətbiqi sahəsində davamlı işlər həyata keçirir. Vergi administrasiyasının nümayəndələrinin OECD-nin Vergi siyasəti və İnzibatçılığı Mərkəzinin tədbirlərində və treninqlərində müzakirələrdə fəal iştirakı təşkilat tərəfindən yüksək dəyərləndirilir. Təşkilatın tədbirlərində məlumat mübadiləsinin genişləndirilməsi, ümumi hesablama standartlarının tətbiqi, BEPS və transfert qiymətləndirmə sahəsində birgə iştirak, offşorlar vasitəsilə vergidən yayınmanın qarşısının alınması sahəsində mübarizədə effektivliyin yüksəldilməsi, həmin sahədə məlumat mübadiləsindən bir alət kimi istifadəyə geniş yer verilməsi və digər mövzularda iştirak Azərbaycanın vergi orqanı əməkdaşlarının bilik və bacarıqlarının, təcrübələrinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Hazırda Vergi siyasəti və İnzibatçılığı Mərkəzi ilə Azərbaycan arasında beynəlxalq səviyyədə vergi cinayəti və vergidən yayınmanın qarşısının alınmasına dair sıx əməkdaşlıq münasibətləri var. Bu isə vergi qaçaqmalçılığı sahəsində təsirli mübarizənin aparılmasına töhfə verir.

**- Azərbaycanla əməkdaşlığın perspektivləri barədə nə deyə bilərsiniz?**

- Hazırda həyata keçirilən layihələr onu təsdiqləyir ki, OECD Azərbaycanla yuxarıda qeyd olunan prioritetlər üzrə əməkdaşlığı davam etdirəcəkdir. Təşkilat həm hazırda icra olunan layihələrə, həm də digər layihələrə dəstək göstərəcək. Əməkdaşlığın əsas istiqamətlərindən biri kimi, dövlət idarəetmə sektorunda islahatların dərinləşdirilməsi nəzərdə tutulur. Bundan əlavə, sosial və ekoloji siyasətin təkmilləşdirilməsi, makroiqtisadi siyasətin yeni meyarlarının hazırlanması, struktur islahatlarının aparılması prioritetlərdəndir. Yaxınmüddətli əməkdaşlıq strategiyasına uyğun olaraq, Azərbaycanda layihələrimizin üç əsas istiqamətini müəyyən etmişik. Bunlar sərmayə və biznes cəlbediciliyinin təmin edilməsində institusional islahatlara, ticarət və nəqliyyat siyasətinə dəstəkdir. Əminəm ki, genişlənən əməkdaşlığımız Azərbaycan iqtisadiyyatının inkişafı üçün faydalı olacaqdır.

**Elbrus CƏFƏRLİ**

# Azərbaycan biznesin səmərəliliyi üzrə ən yaxşı ölkələr qrupundadır

## «Qlobal Rəqabətlilik Hesabatı-2018/2019»da bir sıra göstəricilər üzrə ölkəmizin mövqeyi yaxşılaşıb

Dünya İqtisadi Forumu «Qlobal Rəqabətlilik Hesabatı-2018/2019» sənədini ictimaiyyətə təqdim edib. Hesabatda qlobal sosial-iqtisadi çağırışlar nəzərə alınmaqla ən son yanaşma və müasir metodoloji qiymətləndirmə meyarlarına üstünlük verilib. Əvvəlki qiymətləndirmələrdə tətbiq olunan 114 indikatorun 74 faizi dəyişdirilib, bir neçəsi ləğv olunub və 68 yeni indikator daxil edilib. Hesabat, ümumilkdə, 98 indikatora əsasən hazırlanıb.

Dünyanın iqtisadi və texnoloji olaraq ən rəqabətədavamlı iqtisadiyyatı 85,6 bəndlə ABŞ olub. Qlobal rəqabətlilik reytinqində Sinqapur 83,5 bəndlə ikinci, Almaniya 82,8 bəndlə üçüncü, İsveçrə isə 82,6 bənd ilə dördüncüdür. Yaponiya bu il 3 pillə yüksələrək reytinqdə 82,5 bəndlə 5-ci yerə yüksəlib, Hollandiya isə 82,4 bəndlə 6-cı yerə geriləyib. Honq Konq 82,3 bəndlə 7-ci sıradakı mövqeyini qoruyub, İngiltərə isə iki pillə geriləyərək 82 bəndlə 8-ci yeri tutub. İsveç 81,7 bəndlə 9-cu sıradakı yerini qoruyub, Danimarka bir pillə yüksələrək 80,6 bəndlə 10-cu olub. Danimarkanın ardınca Finlandiya, Kanada, Tayvan, Avstraliya, Cənubi Koreya, Norveç, Fransa, Yeni Zelandiya, Lüksemburq və İsrail gəlir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin əməkdaşı Nicat Hacızadənin sözlərinə görə, yeni metodoloji yanaşma Azərbaycanda aparılan iqtisadi siyasətin, islahatların müsbət nəticələr verdiyini təsdiqləyir. Bunu hesabatdakı makroiqtisadi sabitliyin təmin olunması, biznes sektorunda islahatların təsirli nəticələr verməsi, büdcə-fiskal sahələrdə yeni yanaşmaların tətbiqi və digər meyarlarda görmək mümkündür.

İqtisad elmləri doktoru Zahid Məmmədov isə bildirib ki, builki hesabat yeni metodologiya əsasında 4.0 formatında, rəqəmsal dövlət konsepsiyasına uyğun hazırlanıb. Hesabatda qiymətləndirilən ölkələrin iqtisadiyyat, sosial, elm, təhsil, infrastruktur, investisiya, idarəetmə və digər sektorlarında rəqəmsallaşmanın tətbiqi vəziyyəti əsas meyarlardan biri kimi nəzərə alınıb. Bu baxımdan, inkişaf etməkdə olan bir çox ölkələrin, o cümlədən Azərbaycanın bəzi göstəricilər üzrə yüksək nəticə əldə edə bilməməsi təbiidir. Buna baxmayaraq, xüsusilə biznes fəaliyyəti üzrə reytinqdə Azərbaycanın mövqeyi yaxşılaşıb. Biznesin səmərəliliyi üzrə 31-ci yerdə qərarlaşan ölkəmiz ötən illə müqayisədə 9 pillə irəliləyib: «Bu nailiyyətdə son bir ildə biznes mühitinin təkmilləşdirilməsi və sahibkarların hüquq və mənafelərinin qorunması ilə bağlı həyata keçirilən tədbirlərin mühüm rolu vardır. Ölkə Prezidentinin «Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamından irəli gələn məsələlərin icrası sayəsində biznesə başlama prosedurları sadələşdirilib, sahibkarların qeydiyyatı, ixrac qaydaları asanlaşıb, biznesin səmərəliliyi üçün əlavə addımlar atılıb. Dövlət başçısının imzaladığı «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərmanın icrası ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması sahəsində yeni imkanlar açıb».

Ölkəmizin yüksək nəticələr əldə etdiyi sahələrdən biri İKT sektorudur. Rabitə, nəqliyyat və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə qeyd edib ki, respublikamız İKT-dən istifadə səviyyəsinə görə irəlidə gedən dövlətlər sırasındadır. Hazırda respublikamızda rəqəmsal dövlət quruculuğuna başlanılıb və müvafiq Dövlət Proqramına uyğun olaraq, bütün sahələrdə rəqəmsallaşmanın tətbiqi əsas hədəf kimi qarşıya qoyulub.

Azərbaycan infrastruktur təminatı sahəsində də yaxşı ölkələr qrupundadır. Regionlarda sosial infrastrukturun yaxşılaşdırılması, su, işıq, qaz və digər kommunal sahələrdə təminatın yaxşılaşdırılması, yeni infrastrukturların yaradılması müsbət nəticənin əldə olunmasına imkan verib.

**Elbrus CƏFƏRLİ**

# İdxal-ixrac əməliyyatları üzrə məlumat mübadiləsi

Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən idxal-ixrac əməliyyatları üzrə birgə nəzarət mexanizminin tətbiqindən irəli gələn məsələlərə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edən Vergilər Nazirliyinin Tədris Mərkəzinin «İqtisadiyyat və menecment» kafedrasının müdiri İmran Qarayev bildirib ki, dünya iqtisadiyyatının qloballaşması, mal və xidmətlərin, maliyyə resurslarının sərbəst axını, maliyyə və vergi cinayətlərinə qarşı mübarizənin gücləndirilməsi, bəzi ziddiyyətli məqamların aradan qaldırılması vergi və gömrük orqanları arasında koordinasiyanın genişləndirilməsini və idxal-ixrac əməliyyatlarına birgə nəzarəti zəruri edir. Qeyd olunub ki, dövlət başçısının imzaladığı «İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında» sərəncama əsasən, bir sıra idxal-ixrac əməliyyatları üzrə Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən birgə nəzarət mexanizminin tətbiqi nəzərdə tutulub. Vergilər Nazirliyi yanında İdxal-ixrac əməliyyatları üzrə nəzarət departamentində bu tapşırıqların yerinə yetirilməsi məqsədilə işçi qrup yaradılıb və iş planı tərtib edilib. Hər iki dövlət qurumu tərəfindən birgə yaradılan Vahid Risk Platformasının əsas komponentlərindən biri xarici ticarət fəaliyyətinin iştirakçılarına dair risk qiymətləndirilməsinin təşkili, risk qrupları üzrə bölgü aparılması məqsədilə mal sahibləri, daşıyıcıları və ya onları təmsil edən şəxslər haqqında qarşılıqlı məlumat mübadiləsinin təmin olunmasıdır. Bu məqsədlə beynəlxalq təcrübədə vergi və gömrük orqanları arasında geniş istifadə olunan xarici ticarət statistikası metodologiyası, informasiya mübadiləsini tənzimləyən qanunvericilik aktlarının müəyyənləşdirilməsi, informasiya mübadiləsinin mexanizmləri və həyata keçirilməsi üsullarının təhlili üzrə araşdırmalar davam etdirilir.

Tədris Mərkəzinin «Vergi qanunvericiliyi və təsərrüfat hüququ» kafedrasının müəllimi Orxan Balayevin sözlərinə görə, beynəlxalq təcrübədə vergi və gömrük orqanları arasında nəzarətin əsas mexanizmlərindən biri birgə koordinasiyalı şəkildə informasiya mübadiləsinin təşkilidir. Hər iki tərəf idxal və ixrac, valyuta bəyannamələri, transfer və gömrük qiymətləndirilməsi, daxili, birbaşa və dolayı vergilər, riskli vergi ödəyiciləri haqqında, informasiyanın təhlili barədə bir-birini məlumatlandırır. İnformasiya mübadiləsi sorğu, avtomatik ötürülən məlumatlar, təhlil, sistemli informasiya bazasına qarşılıqlı giriş imkanları, istifadə olunmuş məlumat bazası və analitik informasiya yolu ilə həyata keçirilir. Beynəlxalq təcrübədə vergi və gömrük administrasiyaları arasında informasiya mübadiləsinin ən səmərəli modelləri hesab edilən Serbiya, Rusiya Federasiyası, Cənubi Koreya, Birləşmiş Krallıq, Finlandiya, ABŞ, İspaniya və Avropa İttifaqının Gömrük İttifaqına daxil olan ölkələrin təcrübəsi nəzərdən keçirilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan üçün ən uyğun model İspaniya təcrübəsi hesab edilir. Ölkəmizin vergi və gömrük orqanları birgə məlumatlandırma sistemini yaratmaqla potensial risklərin identifikasiyası, təhlil, audit, nəzarət, transfer qiymətləndirilməsi və digər sahələrdə güclü əməkdaşlıq quracaq.

**ELBRUS**

# Albaniyada TAP-ın dəniz hissəsinin tikintisinə başlanılıb

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, bununla bağlı keçirilən mərasimdə Albaniyanın Baş naziri Edi Rama, infrastruktur və energetika naziri Damian Gjiknuri, TAP-ın icraçı direktoru Luca Schieppati və digər rəsmi şəxslər iştirak ediblər.

Luca Schieppati bildirib ki, TAP hazırda Avropada həyata keçirilən ən strateji və mühüm infrastruktur layihələrindən biridir: «TAP yeni qaz mənbələri təqdim etməklə regionda enerji təchizatının təhlükəsizliyini artırır. Ümumiyyətlə, layihənin 80 faizdən çoxu tamamlanıb».

TAP-ın layihə meneceri John Haynes isə bu layihənin Albaniyada miqyasına və böyüklüyünə görə ilk mühəndislik işi olduğunu qeyd edib. Polad borular dənizin altında ən müasir gəmilərlə qaynaq olunacaq. Qaynaq işlərindən sonra sınaqlar keçiriləcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək. 36 düymlük xəttin inşasında təxminən 9 min boru istifadə ediləcək.

Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən - Yunanıstan, Albaniya və İtaliyadan keçir. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir.

Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

# Azərbaycanın enerji layihələri dəstəklənir

Brüsseldə NATO Daimi Nümayəndələrinin Müavinləri Komitəsinin 29+1 formatında ilk dəfə enerji mövzusunda iclası keçirilib. İclasda «Azərbaycanın Avropa enerji təhlükəsizliyinə töhfəsi» mövzusunda çıxış edən energetika nazirinin müşaviri Esmira Cəfərova ölkəmizin həyata keçirdiyi regional və qlobal əhəmiyyətli enerji layihələri, regional və qlobal enerji təhlükəsizliyinin təminatında rolu, eləcə də energetika sektorunda hazırda aparılan islahatlar və bərpaolunan enerji mənbələrinin payının artırılması istiqamətində görülən tədbirlərdən danışıb.

Tədbirdə iştirakçı NATO ölkələri Azərbaycanın Avropa və qlobal enerji təhlükəsizliyinin təminatında oynadığı rolu yüksək qiymətləndirən bəyanatlarla çıxış ediblər.



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# Əmlak vergisi

***Gəncə şəhərində yerləşən və xüsusi mülkiyyətimdə olan mənzilə görə nə qədər əmlak vergisi ödəməliyəm?***

Vergi Məcəlləsinin 197.1.1-ci maddəsinin müddəalarına əsasən, rezident fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililər və ya onların hissələri əmlak vergisinin vergitutma obyektidir.

Vergi Məcəlləsinin 198.1.1-ci maddəsinin müddəalarına uyğun olaraq, fiziki şəxslərin əmlak vergisi onların xüsusi mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə, bina Gəncə şəhərində yerləşdikdə, 0,3 manat tətbiq edilməklə hesablanır.

Vergi Məcəlləsinin 200.1-ci maddəsinin müddəalarına əsasən, fiziki şəxslərin xüsusi mülkiyyətində olan binalara görə əmlak vergisi onların yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır.

***Qeyd olunanlara əsasən:***

Fiziki şəxsin xüsusi mülkiyyətində olan və Gəncə şəhərində yerləşən yaşayış evinə görə əmlak vergisi həmin evin ümumi sahəsinin 30 kvadratmetrindən artıq olan hissəsinin hər kvadratmetrinə 0,3 manat tətbiq edilməklə yerləşdiyi ərazinin bələdiyyəsi tərəfindən hesablanır. Fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahəsi 30 kvadratmetrədək olduqda, əmlak vergisi hesablanmır.

## ƏRAZİ VERGİ ORQANLARINDA

- H.Z.Tağıyev qəsəbəsində 2 saylı Ərazi Vergilər Departamenti bələdiyyə üzvləri ilə görüş keçirib. Tədbir iştirakçılarına elektron xidmətlərdən istifadə, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər, yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi qaydaları barədə ətraflı məlumat verilib.

- Saatlı şəhərində 5 saylı Ərazi Vergilər İdarəsinin təşəbbüsü ilə vergi ödəyiciləri ilə görüş keçirilib. Rayonda fəaliyyət göstərən fərdi sahibkar və müəssisə rəhbərlərinin iştirak etdiyi tədbirdə vergi qanunvericiliyinə edilmiş son dəyişikliklər, sahibkarların maraqlarının müdafiəsi istiqamətində atılan addımlar, vergi ödəyicilərinin hüquq və vəzifələri, elektron qaimə-fakturanın əhəmiyyəti və tətbiqi qaydaları barədə ətraflı məlumat verilib.

- Kürdəmir şəhərində 9 saylı Ərazi Vergilər İdarəsi tərəfindən rayonda fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçirilib. Tədbir iştirakçılarına vergi qanunvericiliyinə edilmiş son dəyişikliklər, bu dəyişikliklərin sahibkarların fəaliyyətinin stimullaşdırılmasında rolu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, əmək müqavilələsinin rəsmiləşdirilməsi məsələləri barədə ətraflı məlumat verilib. Qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamələri və hesabat formaları, uçot sisteminin şəffaflaşdırılması ilə bağlı suallar cavablandırılıb.

- Göyçay şəhərində 9 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları rayonda fəaliyyət göstərən vergi ödəyiciləri ilə görüş keçiriblər. Görüşdə vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin sahibkarların fəaliyyətinin stimullaşdırılmasında rolu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması barədə ətraflı məlumat verilib. Qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamələri və hesabat formaları, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlər barədə ödəyicilərin sualları cavablandırılıb.

- Quba şəhərində 3 saylı Ərazi Vergilər İdarəsi rayon bələdiyyələri ilə görüş keçirib. Görüşdə vergi qanunvericiliyi və inzibatçılığında edilən dəyişikliklər «Elektron hökumət» portalının imkanları və istifadəsi, eləcə də rüblük vergi bəyannamələrinin, hesabat formalarının və onların əlavələrinin tərtib edilməsi qaydaları bələdiyyə üzvlərinə izah edilib, toplanılan vergilərin poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə ödənilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

# Onlayn kassalar şəffaflığa zəmin yaradır

Biznesdə şəffaflığın təmin edilməsi, korrupsiya və digər neqativ hallarla mübarizədə fəaliyyətin gücləndirilməsi məqsədilə elektron vergi inzibatçılığının tətbiqi, texnoloji təminat vacib şərtlərdəndir. Vergi sistemində həyata keçirilən modernləşmə nəticəsində vergi ödəyicilərinin vergi orqanları ilə əlaqələrinin bütün mərhələlərində - qeydiyyatdan tutmuş bəyannamələrin təqdim edilməsi, vergi ödənişlərindən tutmuş vergi nəzarəti prosesinədək tam şəkildə elektron texnologiyalar üzərindən aparılması ilə bağlı sistemli, planlı, vahid mərkəzdən idarə olunan tədbirlər görülür.

### Nəzarət sistemi elektronlaşdırılır

Vergilər Nazirliyinin rəqəmsal texnologiyalardan istifadənin genişləndirilməsi sahəsində hədəflərindən biri onlayn kassa aparatlarının tətbiqidir. Hazırda nəzarət-kassa aparatlarından nazirliyin sisteminə ötürülən məlumatlar oflayn rejimdə həyata keçirilir. Bu sahədə şəffaflığın təmin olunması üçün yaxın gələcəkdə onlayn kassa aparatlarının tətbiqi planlaşdırılır. Nazirliyin informasiya sistemi ilə onlayn kassa aparatı arasında məlumat mübadiləsi onlayn rejimdə həyata keçiriləcəkdir ki, bu da sistemdə vergi ödəyicilərinin əməliyyat məlumatlarının daha dürüst olmasına və satış mühasibatlığında şəffaflığın təmin olunmasına şərait yaradacaq. Bundan əlavə, kassa aparatları üzrə texniki tələblərə yenidən baxılması planlaşdırılır və bu sahədə dünya təcrübəsi araşdırılır.

### Onlayn kassa nədir?

Bu müasir avadanlıq fiskal operator vasitəsilə mağazaların nağd, kartlarla və elektron pullarla edilən bütün satış dövriyyəsi haqqında məlumat ötürə bilir. Məlumatlar vergi orqanlarına qəbzlərin elektron surəti kimi daxil olur və bazada illərlə qorunub saxlanıla bilir.

Onlayn kassalardan mal və xidmətlər dövriyyəsində şəffaflığı əldə etmək üçün istifadə olunur. Alıcı aldığı elektron qəbzlərin leqallığını istədiyi vaxt yoxlaya bilir. Sistem, həmçinin, vergi uçotunu və gəlirlərin daxilolmasını mobil tətbiq vasitəsilə xeyli asanlaşdırır. Elektron hesabatlılığın və vergi yoxlamalarının sayının azalması kimi nəzərəçarpacaq müsbət hallardan əlavə, satış üzrə əlverişli analitik məlumatların əldə edilməsi və banklardan sərfəli şərtlərlə kreditlərin götürülməsi kimi imkanları əldə edir. Aparılmış əməliyyatlar barədə məlumatlar kassalara quraşdırılmış xüsusi fiskal yaddaşların tətbiq edilməsi sayəsində fiskal əməliyyatlar operatoru vasitəsilə Federal Vergi Xidmətinə (FVX) daxil olmağa başlayıb.

Belə şəffaflıq yoxlamalar üçün yerlərə getmək zərurətini azaldır. «Çek onlayn» kassa texnikalarının təchizatçı şirkətinin baş direktoru Konstantin Ştikovun bildirdiyinə görə, 2018-ci ilin birinci rübü ərzində Federal Vergi Xidmətinin əməkdaşları tərəfindən şirkətlər üzrə yerlərə yoxlamaya gedənlərin sayı 26% azalıb.

OFD.ru-nun qiymətləndirməsinə görə, islahatların sonunda FVX tərəfindən tam avtomatlaşdırılmış monitorinq Rusiyanın bütün hüquqi şəxslərinin 60%-ni əhatə edəcək. A.Rumyantsev qeyd edib ki, FVX şəffaflığın artırılması hesabına kütləvi yoxlamalardan konkret (dəqiq) yoxlamalara keçir ki, bu da öz növbəsində vergi orqanları ilə qarşılıqlı əlaqə zamanı şirkətlərə resursların az sərf olunması və vaxt itkisinin qarşısının alınması imkanları yaradır.

Kassaların tətbiqinin «əkstəsiri» ondadır ki, sahibkarlar malların satışı və qalığı barədə operativ məlumat əldə etmək imkanı qazanırlar. Bu məlumatları kassanın fiskal yaddaşından və ya daha aktiv kassirləri mükafatlandırmaqla həvəsləndirmək üçün istifadə edə bilər.

İtaliya vergi administrasiyası müştəriləri ilə iş və satışı planlama funksiyalarını həyata keçirmək üçün vergi ödəyicilərinə öz şəxsi məlumatlarına giriş icazəsi verir. Bundan başqa, pərakəndə ticarət müəssisələri və istehlakçılarla əks-əlaqənin qurulması prosesi də daxil olmaqla, onlayn kassa sisteminin səmərəliliyinin qiymətləndirilməsi üçün işlək alətlərinin yaradılmasının zəruriliyinə xüsusi diqqət yetirilir.

Cənubi Koreyada onlayn kassa 2005-ci ildən kütləvi şəkildə tətbiq olunur. İndiyədək bütün ölkə bu təcrübəni qəbul edib. Tipik onlayn kassalar proqram paketinin təmin olunmasını və ya proqram-aparat kompleksini təmsil edir ki, bu da bir neçə moduldan ibarət olaraq, bir korpusda bütün lazımi informasiyaları yerləşdirə bilir. Ölkədə 2016-cı ildə bu sistemin tətbiqi nəticəsində pərakəndə əməliyyatlarda kassa çeklərinin verilməsinə görə iqtisadiyyatın şəffaflığı 96% artıb.

Qazaxıstanda alışın sənədləşdirilməsi üçün real vaxt kəsimində vergi orqanlarına pul uçotu ilə bağlı məlumat ötürən yeni nəzarət-kassa maşınları 2015-ci ilin iyul ayından istifadə olunur. Burada məlumat kassanın maliyyə modulunda şifrələnərək hərəkət edən açıq yollarla, VPN-dəhliz vasitəsilə ötürülür. Operator hər bir kassanın işi ilə bağlı gündəlik uçot hazırlayır və Qazaxıstanın Dövlət Gəlirləri Komitəsinin şəbəkəsinə daxil edir. Vergi orqanları sadə veb-interfeys vasitəsilə operatorun bazasına giriş əldə edir və hər bir kassanın dövriyyəsini izləyə bilir.

> Onlayn kassanın vergi orqanı üçün əlverişliliyi pul axınlarının nəzarətə götürülməsi və bununla da vergidən yayınma hallarının aradan qaldırılmasıdır

qəbzlər elektron ünvana və ya satıcıdan tələb olunan istinada yönləndirilir.

Avadanlıqların alınmasına və onlara xidmətlərin göstərilməsinə çəkilən xərclər kimi aşkar narahatlıqlardan əlavə, onlayn kassaların müsbət cəhətləri də var. Onlayn kassalar analitik alətlərin satışlarını təchiz etməklə kiçik sahibkarları məcburi rəqəmsal dövrə aparır.

### Dünya təcrübəsi

RBC.ru işgüzar informasiya portalının məlumatına əsasən, Rusiyada 2018-ci ilin iyul ayının 1-dən onlayn kassalar ölkə biznesinin işlətdiyi gündəlik reallıqların bir hissəsinə çevrilib. Mövzu ilə bağlı sayta müsahibəsində OFD.ru fiskal məlumatlar operatorunun direktoru Anton Rumyantsev qeyd edib ki, hazırda sahibkarların təcrübədə onlayn kassaların və fiskal məlumatların operatorlarının onlara verdikləri üstünlüklərdən tədricən istifadə etməyə başladıqları görünür. Kiçik biznes kağız əməkdaşın «şəxsi kabineti»nə və ya şirkətin CRM sisteminə xüsusi proqram təminatı vasitəsilə avtomatik boşaltmaq mümkündür.

«SKB Kontur»un hesablamalarına görə, onlayn kassalara keçmiş və ya növbəti ildə keçməsi nəzərdə tutulmuş biznesmenlərin (sahibkarların) minimum 2/3 hissəsi malların uçotu ilə qismən və ya ümumiyyətlə məşğul olmayıblar. Onlayn kassaların yığdıqları məlumatların təhlili imkan verir ki, sahibkarlar özlərinin marketinq strategiyalarını qursunlar. Məsələn, ticarət üçün əlverişli vaxt seçsinlər, müxtəlif endirimlər və aksiyalar keçirsinlər.

Sistem nəinki mağaza üzrə orta çek sayını hesablamağı, həmçinin hansı malların daha çox satıldığını, günün müxtəlif vaxtlarında mağazada nə qədər alıcının olduğunu müəyyən etməyə imkan yaradır. Satıcı bu məlumatlardan satışın həcmini artırmaq, daha çox tələb olunan məhsulların çeşidini genişləndirmək üçün istifadə edə bilər.

Argentinada kassa aparatlarının modernləşdirilməsinə 2013-cü ilin dekabrından başlanılıb. İndi bütün kassalar maliyyə printeri qeydiyyatla təmin edilib ki, bununla da əməliyyatların elektron möhürlə təsdiqlənmiş jurnalı aparılır.

İsveçrə Krallığında, deməli olar ki, bütün satışlar haqqında məlumatı özündə saxlayan kassa aparatlarından istifadə olunur. Yaddaşda çeklərin ümumi sayı, əməliyyatların ümumi məbləği və hər bir satışla bağlı ayrıca məlumat (qəbzin nömrəsi, verildiyi gün, saatı, ƏDV məbləği) saxlanılır.

Macarıstanda 2014-cü ildən ölkənin Vergi Nəzarət Agentliyi ancaq xüsusi maliyyə nəzarətinə malik bloku olan kassa aparatlarına lisenziya verir. Əməliyyatlarla bağlı məlumatlar şifrəli şəkildə vergi orqanına daxil olur. Maraqlıdır ki, Macarıstanda ötürücü rolunda mobil operatorlardır. Onlar fiskal məlumatlar operatoru kimi çıxış edir və bütün ölkəyə ötürücülüyü var. Bu ölkədə onlayn kassa sisteminin tətbiqi nəticəsində ƏDV üzrə vergi fərqi 2013-cü ildən 2015-ci ilədək 21%-dən 14%-ə düşüb, ƏDV yığımı isə 15%-ə çatıb.

Slovakiyada elektron kassalar 2008-ci ildə yaranıb. 2015-ci il yanvarın 1-dən isə virtual elektron kassalar dövriyyəyə buraxılıb. Bu veb platforma respublikanın maliyyə şöbələrinə inteqrasiya olunub. Sistem satıcılar üçün pulsuzdur və hər bir satıcının şəxsi kompüterindən, smartfon və planşetindən giriş mümkündür.

### Ekspertlər nə deyirlər...

Millət vəkili Tahir Mirkişili bildirir ki, vergi ödəyicilərinin fəaliyyəti haqqında daha dürüst, çevik və əhatəli məlumat almaq vergi inzibatçılığının effektivliyini xeyri artırır: «Bir çox ölkələrdə sınaqdan keçirilən metod, bir tərəfdən, vergi orqanlarının daha operativ məlumat əldə etməsinə imkan yaradır, digər tərəfdən də vergidən yayınma hallarının qarşısını alır. Sistem həm də sahibkarların marağında olacaqdır, çünki bu üsul bütün sahibkarlar üçün bərabər rəqabət şəraiti yaradacaq bilər. Onlayn kassa metodunun tətbiqində ən çətin çağırış sistemin dayanlıqlı olması, müasir platformalara və Big-Data prinsiplərinə uyğunlaşdırılmasıdır. Hesab edirəm ki, Azərbaycanda da belə bir innovativ metodu uğurla tətbiq etmək mümkündür və bu, hər kəs üçün faydalı ola bilər».

İqtisadçı Rəşad Əliyev qeyd edir ki, onlayn kassanın vergi orqanı üçün əlverişliliyi pul axınlarının nəzarətə götürülməsi və bununla da vergidən yayınma hallarının aradan qaldırılmasıdır. Həmin kassalar üzrə həyata keçirilən bütün əməliyyatlar dərhal vergi orqanının məlumat bazasına ötürülür. Bununla yanaşı, sistemin tətbiqi operativ nəzarət və yoxlama işləri üçün ayrılan insan resurslarının daha səmərəli istifadəsinə xidmət edir: «Bəzən elə təəssürat yaranır ki, bu sistemin tətbiqi yalnız vergi orqanlarının marağında olur. Ancaq bir şeyi nəzərə almaq lazımdır ki, şəffaf vergi ödəyiciləri üçün bu sistem daha əlverişlidir. Həmin vergi ödəyicisi anlayır ki, sistemin tətbiqi son nəticədə yoxlamaların azalmasına xidmət edəcək. Sözsüz ki, şəffaf vergi ödəyicisi vergi yoxlamasından qorxmur, buna baxmayaraq, hər bir yoxlama həm vergi ödəyicisi, həm də vergi orqanı üçün lazımsız vaxt itkisidir. Digər tərəfdən, onlayn kassanın tətbiqi sahəsində vergi ödəyicilərinin öz daxili sistemlərində sui-istifadə halları azalır. Çünki bəzi hallarda biznes sahibləri işçilərin kassa əməliyyatlarında nə qədər dürüst olmalarını tam yoxlaya bilmirlər».

R.Əliyev onu da nəzərə çatdırıb ki, onlayn kassa sisteminin tətbiqi alıcılar üçün də yeni üfüqlər açır. Onlar lazım gəldikdə çekləri hətta elektron versiyada ala biləcək, üstəlik, ödədikləri pulların öz ünvanına çatacağına tam əmin olacaqlar.

*Hazırladı:*
**F. İKRAMQIZI**

### Müəssisə tərəfindən çöl şəraitində çalışan və iş gediş-gəliş xarakteri daşıyan işçilərə ödənilən əlavə vəsait işçinin vergi tutulan gəlirlərinə aid edilirmi?

Vergilər Nazirliyinin Vergi siyasəti departamentinin idarə direktoru Əvəz Quliyev bildirib ki, Vergi Məcəlləsinin 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir. Vergi Məcəlləsinin 102.1.14.1-ci maddəsinə görə, iş vaxtı daimi yolda olan və ya işi gediş-gəliş (səyyar) xarakteri daşıyan, çöl təşkilatlarında işləyən işçilərə gündəlik ezamiyyə xərclərinin əvəzində verilən əlavə vəsaitin, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dəniz nəqliyyatında ezamiyyə xərcləri əvəzinə üzücü heyətin üzvlərinə sutkalıq ödənişlərin qanunvericiliklə nəzərdə tutulan məbləği gəlir vergisindən azaddır.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 18 yanvar 2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində 30 yanvar 2012-ci il tarixdə normativ-hüquqi aktların dövlət reyestrində qeydiyyata alınmış «İşçilərin ezamiyyə Qaydaları»nın 1-ci bəndinə uyğun olaraq, dövlət orqanının, müəssisə, idarə və təşkilat rəhbərinin sərəncamı (əmri) ilə işçinin daimi iş yerindən müəyyən olunmuş müddətə başqa yerə xidməti tapşırığı yerinə yetirmək üçün getməsi xidməti ezamiyyə sayılır. Daimi işi yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) işçilərin xidməti gedişi isə ezamiyyə hesab olunmur.

# Ezamiyyə xərcləri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli «Ezamiyyə xərclərinin normaları haqqında» qərarının 4-cü bəndinə görə, ezamiyyə xərclərinin 1 günlük normasına gündəlik, mehmanxana, rabitə, şəhərdaxili nəqliyyat (taksidən istifadə istisna olmaqla) və digər xidmətlərlə bağlı xərclər daxildir. Bu qərarın 6-cı bəndinə əsasən, daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxta) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə hər gün üçün 10 manat əlavə vəsait verilirdi. Nazirlər Kabinetinin 1 iyul 2018-ci ildən qüvvəyə minən qərarına əsasən Azərbaycanda ezamiyyə xərclərinin normaları artırılıb. «Ezamiyyə xərclərinin normaları haqqında» Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli qərarında dəyişikliyə uyğun olaraq, ölkə ərazisində ezamiyyə xərclərinin 1 günlük norması Bakı şəhərində 65 manatdan 90 manata, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 50 manatdan 70 manata, respublika tabeli digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 45 manatdan 65 manata qədər artırılıb. Bununla yanaşı, daimi iş vaxtı yolda keçən və gediş-gəliş xarakteri daşıyan, növbə (vaxt) metodu ilə işləyən və çöl şəraitində çalışan (gündəlik iş vaxtı başa çatdıqdan sonra öz daimi yaşayış yerinə qayıtmaq imkanı olmayan) müəssisə, idarə və təşkilatların işçilərinə ezamiyyə xərcləri əvəzinə verilən əlavə vəsait hər gün üçün 10 manatdan 15 manata qaldırılıb.

*Hazırladı:*
**FƏXRİYYƏ**

# Azərbaycan və Türkiyənin birgə regional fəaliyyəti genişlənir



Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin, eləcə də iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsində dövlət orqanları və şirkətlərlə yanaşı, iş adamlarının yaratdıqları qeyri-hökumət təşkilatlarının da mühüm töhfəsi var. 2004-cü ildə Azərbaycan və Türkiyə iş adamları tərəfindən təsis edilmiş Azərbaycan Türkiyə İş Adamları Birliyi – ATİB işgüzar dairələrin və iki qardaş ölkənin maraqlarını təmsil edən ictimai birlik kimi fəaliyyət göstərir. Müsahibimiz ATİB-in İdarə Heyətinin sədr müavini Mürsəl Rüstəmovdur.

**- Azərbaycan-Türkiyə İş Adamları Birliyinin əsas missiyası nədir? Birliyin fəaliyyət konsepsiyasının təməlində nə durur?**

- ATİB-in təməl dəyərlərini liderlik, müstəqillik, dürüstlük, ədalətlilik, innovativlilik və açıqlıq təşkil edir. Birlik Azərbaycanı və Türkiyəni regionun qabaqcıl ölkələri kimi görür və bunun üçün hər iki ölkə arasında, daha sonra isə Azərbaycan və digər ölkələr arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsinin vacibliyinə inanır.

Birliyimizin fəaliyyəti yalnız iki qardaş ölkə arasındakı münasibətlərin, iqtisadi əlaqələrin deyil, eyni zamanda Azərbaycan və Türkiyənin birgə regional fəaliyyətinin gücləndirilməsinə də yönəldilib. ATİB-in niyyəti Avrasiya geosiyasətində öndə gələn ölkələrin əməkdaşlıq səviyyəsini artıraraq davamlı iqtisadi inkişafı təmin etmək, xüsusilə qeyri-neft sektorunu inkişaf etdirərək özümüzdən sonrakı nəsillər üçün daha sağlam və təhlükəsiz gələcək perspektivi reallaşdırmaqdır.

Ötən illər ərzində Azərbaycanın Vergilər və İqtisadiyyat nazirlikləri, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycan Türkiyə İş Şurası, Türkiyənin Azərbaycandakı səfirliyi və digər təşkilatlarla bir sıra biznes forumları təşkil edilib. Bundan başqa, ATİB öz ofisində Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmaq istəyən Türkiyənin və üçüncü tərəfi təmsil edən ölkələrin yüzlərlə şirkəti ilə görüşlər keçirərək onlara Azərbaycandakı investisiya mühiti və biznes imkanları ilə bağlı geniş məlumatlar verib.

**- Azərbaycandakı əsas tərəfdaşlarınız hansı qurumlardır? Sizinlə tərəfdaşlıq birliyə qoşulan təşkilatlara nə verir?**

- ATİB yarandığı gündən çevik şəkildə regional və qlobal təşəbbüslərə qoşulmağa üstünlük verib. Birliyimiz təmasda olduğu və əməkdaşlıq etdiyi qurum və təşkilatların əhatə dairəsinin genişləndirilməsinə xüsusi önəm verir.

ATİB beynəlxalq təşkilatların həm mərkəzi ofisləri, həm də Azərbaycanda yerləşən nümayəndəlikləri ilə səmərəli əlaqələr qurub. Bunun nəticəsidir ki, Birlik 2008-ci ildə BMT-nin Qlobal Saziş layihəsinə ölkəmizin iş adamları təşkilatları arasından birinci qoşulub. 2011-ci ildə isə ATİB BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) növbəti sessiyasında ECOSOC yanında «xüsusi konsultativ status» əldə edib. Bu status ECOSOC-un qeyri-hökumət təşkilatları ilə iş bölməsinə üzvlük xarakteri daşıyır və ATİB-ə müəyyən üstünlüklər və imkanlar verir. Birliyin əldə etdiyi bu və digər imkanlardan Azərbaycan və Türkiyənin dövlət maraqlarının təmin edilməsi üçün maksimum dərəcədə istifadə olunur.

Türkiyə ilə Azərbaycan arasındakı ticarət və iqtisadiyyat əlaqələrini inkişaf etdirərək, türkiyəli iş adamlarının Azərbaycan bazarında daha effektiv fəaliyyət göstərmələrinə zəmin hazırlanması üçün sıx əməkdaşlıq etdiyi qurumlardan biri də Türkiyə Xarici İqtisadi Əlaqələr Şurası - DEİK-dir. Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının nəzdində olan Dünya Türk İş Şurası (DTİK) Avrasiya bölgə komitəsi ilə iqtisadi əlaqələrinin daha da genişləndirilməsi istiqamətində əməkdaşlıq edirik. Regionda fəaliyyət göstərən iş adamlarının digər birlikləri də qarşılıqlı əməkdaşlıq etdiyimiz təşkilatlar sırasındadır.

ATİB fəaliyyətə başladığı dövrdən etibarən əməkdaşlığa mühüm önəm verib. Ötən müddət ərzində qurumun həm Azərbaycanın, həm də Türkiyənin dövlət və hökumət institutları ilə qarşılıqlı faydalı əməkdaşlıq prinsipinə əsaslanan işgüzar münasibətləri formalaşmışdır. Birlik Azərbaycanda dövlət orqanları, ali təhsil müəssisələri ilə də əməkdaşlıq edir. Əməkdaşlıq müqaviləsi bağladığımız universitetlərin tələbələri əldə etdikləri nəzəri bilikləri ATİB-ə üzv olan şirkətlərdə ən səmərəli şəkildə tətbiq etmək imkanı qazanırlar.

ATİB hər zaman Azərbaycana sərmayə yatırmaq istəyən türkiyəli iş adamlarına və eyni zamanda Türkiyədə biznes qurmaq istəyən azərbaycanlı iş adamlarına dəstək olmağa hazırdır.

> İndiyədək Azərbaycan Türkiyə iqtisadiyyatına 14 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollar həcmində yatırım edib və bu, kifayət qədər böyük rəqəmdir

**- ATİB-in təşkil etdiyi biznes forumları, regional əməkdaşlıq platformaları daxilində hansı məsələlər öz həllini tapır?**

- Biznes forumlarının, regional əməkdaşlıq platformalarının ümumi məqsədi milli biznesin inkişafına dəstək vermək, iş adamlarını ən zəruri informasiya ilə təmin etmək və sahibkarların fəaliyyətləri zamanı qarşılaşdıqları çətinliklərin həllində yardımçı olmaqdır. Arzumuz Türkiyə və dünyadakı türk birlikləri ilə əlaqəni genişləndirmək, Azərbaycana daha çox sərmayə cəlb etməkdir.

2005-ci ildən etibarən formalaşdırdığımız regional əməkdaşlıq platformalarının əhatə dairəsi daha da genişlənib. Konkret olaraq qeyd edə bilərəm ki, 2006-cı ilin əvvəllərindən Avrasiya İş Adamları Birliyi layihəsi çərçivəsində Türkiyə Sənayeçi və İş Adamları Dərnəyinin (TÜSİAD) yaxın dəstəyi ilə Qara dəniz və Xəzər dənizi İş Adamları Konfederasiyaları Birliyinin (UBCCE) qurulmasına start verildi və həmin ilin noyabrında təşkilat təsis edildi. UBCCE-nin əhatə etdiyi coğrafiya genişlənib və hazırda bu təşkilat özündə 19 ölkənin 24 iş adamları qurumunu birləşdirir.

Bu tədbirlərin keçirilməsində məqsəd mütəxəssisləri, dövlət təşkilatlarını, siyasətçiləri, elm və təhsil xadimlərini, ictimaiyyətin və biznes dünyasının təmsilçilərini, bir sözlə, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələrini bir araya gətirməklə regionun rifahına mane olan problemləri və onların aradan qaldırılması yollarını müəyyən etməkdir.

**- Azərbaycan iqtisadiyyatına investisiyaların cəlb edilməsi istiqamətində ATİB hansı işləri görür?**

- Təkcə ötən il Rusiya, Moldova və Ukraynada tədbirlər keçirilib, Azərbaycandakı biznes mühiti barədə məruzələr edilib. İş adamları ATİB-in imkanlarından istifadə edərək yeni əlaqələr formalaşdıra bilər. Birlik öz biznesini inkişaf etdirmək istəyən sahibkarların hər iki ölkədə biznes sahəsinin liderləri və dövlət rəsmiləri ilə əlaqələr yaratmalarını təmin edir.

**- Türkiyə ilə Azərbaycan arasında qarşılıqlı sərmayə qoyuluşunun həcminin daha da artırılması ilə bağlı hansısa əlavə layihələrin həyata keçirilməsi planlaşdırılırmı?**

- Türkiyə Cümhuriyyətinin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Azərbaycana sonuncu səfəri zamanı qeyd etmişdi ki, iki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşu ilbəil artır. İndiyədək Azərbaycan Türkiyə iqtisadiyyatına 14 milyard dollar, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard dollar həcmində yatırım edib və bu, kifayət qədər böyük rəqəmdir. Qarşılıqlı ticarət dövriyyəsi də getdikcə artır.

Bakı-Tbilisi-Qars, TAP, TANAP kimi qlobal layihələr birgə səylərimiz nəticəsində icra edilir. Biz Avropanın enerji və nəqliyyat xəritəsini yenidən qururuq. Bu, bizim gücümüzü artırır, regional əməkdaşlığı gücləndirir, regionun təhlükəsizliyinə töhfə verir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# IOTA vergi borclarının idarə edilməsi üzrə yenilikləri bölüşüb

Bu günlərdə Yunanıstanın paytaxtı Afina şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) borcların idarə olunması üzrə işçi qrupunun «Vergi borclarının idarə edilməsi prosesinin avtomatlaşdırılması» mövzusunda iclası keçirilib. Avropanın 23 ölkəsindən 38 vergi administrasiyasının nümayəndəsinin iştirak etdiyi tədbirdə avtomatik bildirişlərin göndərilməsi və ödənişlərin həyata keçirilməsi, bank hesablarından borcların elektron ödənişi və digər mövzularda müzakirələr aparılıb. Vergi administrasiyalarının son illərdə vergi borclarının alınmasında tətbiq olunan inzibatçılıq alətləri, yeni texnologiyaların istifadəsi ilə bağlı məsələlərə toxunulub. Tədbirdə borcların yığılması prosesinin avtomatlaşdırılması ilə əlaqədar müasir texnologiyaların tətbiqi ilə bağlı yeniliklər (süni intellekt, robot texnikası və s.), eləcə də vergi borclarının avtomatik ödənilməsi, vergi ödəyicisinə (e-mail və ya şəxsi kabinetinə) bildiriş və xəbərdarlıqların avtomatik göndərilməsi, SMS-lər, «outbound» zənglər, borcların idarə edilməsinin avtomatlaşdırılması və risklərin müəyyənləşdirilməsi sahəsində həyata keçirilən yeniliklər barədə təqdimatlar olunub.

Tədbirdə Azərbaycanı Vergilər Nazirliyinin Vergi öhdəliklərinin icrasına nəzarət departamentinin əməkdaşı Elvin İsayev təmsil edib.

# Dünya Bankı nağdsız ödənişlərə dəstək verir

Dünya Bankı Azərbaycanda qeyri-neft sektorunun inkişafının qənaətbəxş səviyyədə olduğunu və ölkəmizin regionda iqtisadi artımda əsas güc mərkəzinə çevrildiyini bildirib. Bankın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Navid Naqvi qeyd edib ki, ortamüddətli perspektivdə qeyri-neft sektorunun illik artımı 2,7% təşkil edəcək ki, bu da iqtisadi inkişafın təmin olunmasında mühüm göstəricidir. Dünya Bankının qiymətləndirmələrinə görə, qeyri-neft sektorunda istehsalın dəstəklənməsi və təşviqi, qeyri-neft ixracının həvəsləndirilməsi ilə bağlı atılan addımlar öz nəticəsini göstərir. Bu amillər ölkənin tədiyyə balansının profisitinə də müsbət təsir edir. Bankın iqtisadi inkişaf proqnozları əsasən, 2018-ci ildə Azərbaycanda iqtisadi artım 1% təşkil edəcək, xarici ticarət dövriyyəsində müsbət saldo əldə olunacaq və bu faktor maliyyə sabitliyinə, manatın məzənnəsinə təsir göstərəcək.

Bildirilib ki, Dünya Bankı ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və rəqabətqabiliyyətliliyin təmin edilməsi, bank və maliyyə sektorunda islahatların aparılması istiqamətində öz dəstəyini davam etdirəcək. Dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, institusional quruculuq, strateji yol xəritələrində nəzərdə tutulmuş bir sıra prioritetlər üzrə strateji planlar hazırlanacaq.

Bank Azərbaycan hökuməti qarşısında bəzi tövsiyələrini də irəli sürüb. Bunlar özəl sektorun stimullaşdırılması və yeni iş yerlərinin yaradılması məqsədilə biznesə dəstəyin və rəqabət mühitinin artırılması üçün struktur islahatların davam etdirilməsi, maliyyə-fiskal sahədə optimal biznes mühitinin təmin olunmasıdır.

Dünya Bankı «Elektron və rəqəmsal maliyyə xidmətləri» layihəsi çərçivəsində Azərbaycanın regionlarında nağdsız ödəniş infrastrukturunun gücləndirilməsinə, vətəndaşların nağdsız və mobil ödənişlərə təşviqi üçün müxtəlif stimullaşdırıcı addımların atılmasına da texniki dəstək göstərəcək. Bankın Avropa və Mərkəzi Asiya üzrə meneceri Yesper Kyaer bildirib ki, layihənin icrası Azərbaycanda müasir maliyyə xidmətlərinin qurulmasına və hər bir bölgədə yaşayan insanlar üçün əlçatanlığın təmin olunmasına, mobil və rəqəmsal xidmətlərin tətbiqinə, o cümlədən nağdsız ödəmələrin həyata keçirilməsinə imkan verəcək.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Oktyabrın 23-də Bakıda öz işinə başlayan XXIV Azərbaycan Beynəlxalq İnşaat «BakuBuild Azerbaijan» sərgisində dünyanın 22 ölkəsindən 301 şirkət iştirak edir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin «Azexport» portalı və Dünya Ticarət Mərkəzləri Assosiasiyası arasında anlaşma memorandumu imzalanıb.

Türkiyənin Antalya şəhərində keçirilmiş «InterFresh-2018» kənd təsərrüfatı sərgisində «Ərzaq məhsullarının tədarükü və təchizatı» ASC-nin nümayəndə heyəti də iştirak edib.

Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun nümayəndə heyəti İsveçrənin Bazel şəhərində Beynəlxalq Əmanətlərin Sığortalanması Assosiasiyasının illik toplantısında və qurumun Avrasiya və Asiya-Sakit okean regional komitələrinin iclaslarında iştirak edib.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ✓ | ✗ |
| Əmək məzuniyyətindən istifadə hüququ | ✓ | ✗ |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ✓ | ✗ |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ✓ | ✗ |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ✓ | ✗ |
| İpoteka və digər kreditləri almaq imkanı | ✓ | ✗ |
| Məhkəmədə hüquqların müdafiəsi | ✓ | ✗ |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əməkhaqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

**Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya «195-1» Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

**Əmək müqaviləsinin rəsmiləşdirilməsi**

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan** **5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan** **25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Əmək məzuniyyəti və vətəndaşın hüquqları

Mülkiyyət formasından, təsərrüfatçılıq və təşkilati-hüquqi tabeliyindən asılı olmayaraq bütün idarə, müəssisə və təşkilatlarda çalışan işçilərin Azərbaycan Konstitusiyasının 37-ci maddəsinə görə istirahət etmək hüququ var. Bu, vəzifəsindən, iş rejimindən, əmək şəraitindən və fərdi əmək müqaviləsinin müddətindən asılı olmayaraq, hər bir vətəndaşa aiddir. Əmək müqaviləsi ilə işləyənlərə qanunla müəyyən edilmiş, lakin gündə 8 saatdan artıq olmayan iş günü, istirahət və bayram günləri, ildə azı bir dəfə 21 təqvim günündən az olmayan ödənişli məzuniyyət verilir.

Mövzu ilə bağlı müraciət etdiyimiz hüquqşünas Xəyal Məmmədxanlı bildirib ki, qanunvericilik bütün işçilərə onların iş yeri və orta aylıq əməkhaqqı saxlanılmaqla illik məzuniyyət verilməsini nəzərdə tutur. Əmək məzuniyyəti işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi üçün işdən ayrılmaqla öz mülahizəsi ilə istifadə etdiyi istirahət vaxtıdır və Əmək Məcəlləsində nəzərdə tutulmuş müddətdən az olmayaraq verilməlidir. Məzuniyyət hüququ ilə bağlı müddəalar Azərbaycan Respublikasının tərəfdar çıxdığı bir sıra beynəlxalq hüquqi aktlarda da öz əksini tapıb. «Ödənişli məzuniyyətlər haqqında» Beynəlxalq Əmək Təşkilatının 1970-ci ildə qəbul etdiyi və 1994-cü il 19 iyun tarixindən Azərbaycan Respublikasının qoşulduğu Konvensiyasının 3-cü maddəsinin birinci bəndinə görə, hər bir şəxs müəyyən edilmiş minimum müddətli illik ödənişli məzuniyyət hüququna malikdir.

Ölkə Konstitusiyası və beynəlxalq konvensiyanın prinsip və normalarına uyğun olaraq, məzuniyyət verilməsinin qaydaları Əmək Məcəlləsində tənzimlənən münasibətlər sırasındadır. Mövcud qanunvericiliyə görə, ödənişli əmək məzuniyyətindən istifadə etmək hər bir işçinin əsas hüquqlarından sayılır. Lakin təəssüf ki, günümüzdə işçilərlə işəgötürənlər arasında həmin hüquqların pozulması hallarına daha çox rast gəlinir və bu cür problemlər hələ də aktual olaraq qalır. Əmək Məcəlləsinin 135-ci maddəsinin 2-ci hissəsinə edilən son dəyişiklikdən öncə həm işəgötürənlər tərəfindən, həm də digər səbəblərdən işçilərə əmək məzuniyyətləri vaxtlı-vaxtında verilmirdi və bunun nəticəsi olaraq işçilərin illər boyu yığılmış əmək məzuniyyətlərinə çıxmaları, bir növ, istehsalın və xidmətin təşkilində problemlər yaradırdı və ya şəxs işdən çıxanda pul əvəzlərinin verilməsində sıxıntılar yaşanırdı. Bütün bu hallar nəticəsində işçilərin hüquqları pozulmuş olurdu.

Məhz bu səbəbdən, vəziyyətdən çıxış yolu tapmaq və məzuniyyət hüquqlarının pozulmasının qarşısının alınması məqsədilə 2006-cı ildə qanunvericiliyə kompensasiya müəyyən edən norma əlavə olundu. Bununla da işçi müvafiq iş ilində əmək məzuniyyətindən istənilən səbəbdən istifadə etmədikdə ona həmin iş ili (iş illəri) üçün istifadə olunmamış əmək məzuniyyətinə görə müəyyən edilmiş qaydada və məbləğdə kompensasiya ödənilməsi təsbit olundu.

X.Məmmədxanlı bildirib ki, Əmək Məcəlləsinin 135-ci maddəsinə edilən dəyişiklik qəbul edildiyi dövr üçün təqdirəlayiq sayılsa da, fikrimizcə, işçilərin məzuniyyət hüquqları ilə bağlı qanunvericilikdə hələ də müəyyən boşluqlar özünü göstərir. Əmək Məcəlləsinin 113-cü maddəsinin 1-ci hissəsində əmək məzuniyyətinin izahında qeyd olunur ki, əmək məzuniyyəti işçinin normal istirahəti, əmək qabiliyyətinin bərpası, sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi üçün verilən istirahət günləridir. Bu maddədən belə bir nəticəyə gəlmək olar ki, bir iş ili ərzində işçinin məzuniyyətdən istifadə etməməsi onun sağlamlığına mənfi təsir göstərir. Fiziki və mənəvi cəhətdən yorulmuş işçinin iş qabiliyyəti ilə yanaşı, onun motivasiyası da aşağı düşür. Nəticə etibarilə, əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarının işçilər tərəfindən pozulması halları da artır. Bu məsələnin həllinin araşdırılması üçün Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə nəzər salmaq olar. Beynəlxalq Əmək Təşkilatının 1970-ci ildə qəbul etdiyi 132 nömrəli «Ödənişli məzuniyyətlər haqqında» Konvensiyasına əsasən, bir il işləməyə görə işçinin məzuniyyəti heç bir halda üç iş həftəsindən az verilə bilməz. Bununla yanaşı, adı çəkilən Konvensiyanın 12-ci maddəsində qeyd olunur ki, Konvensiyanın 3-cü maddəsinin 3-cü bəndində nəzərdə tutulmuş minimum illik ödənişli məzuniyyət hüququndan imtina edilməsi haqqında və ya bu cür məzuniyyətin pul ilə əvəz olunması və (və ya) milli şərtlərə uyğun gələn başqa şəkildə ondan istifadə edilməməsi haqqında müqavilələr etibarsız sayılır və ya qadağan edilir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 135-ci maddəsinə əsasən, istənilən səbəbdən əmək məzuniyyətinin istifadə edilməməsi və kompensasiya verilməsi işçinin üç iş həftəsi müddətinə məzuniyyət hüququnu istisna etmir.

X.Məmmədxanlı qeyd edib ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 135-ci maddəsinin 2-ci hissəsinin Beynəlxalq Əmək Təşkilatının 132 nömrəli «Ödənişli məzuniyyətlər haqqında» Konvensiyasının 12-ci maddəsi prizmasından şərh edilməsi barədə məsələ qaldırılması mümkündür.

Vergi üzrə mütəxəssis Emin Səttarov işçiyə keçmiş və cari iş ilinə görə istifadə etmədiyi əmək məzuniyyəti üçün kompensasiya verilərkən gəlir vergisinin hesablanması ilə bağlı bildirib ki, təcrübədə bir çox mühasiblər tərəfindən kompensasiya hesablanarkən bitmiş iş ilinə görə vergitutma məqsədləri üçün Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə əsasən azadolma çıxıldıqdan sonra gəlir vergisi hesablanır. Amma cari iş ili üçün hesablanmış kompensasiya həmin ayın əməkhaqqı ilə birlikdə hesablanaraq yalnız bir dəfə (cəmi məbləğə) azadolma tətbiq edilir. Bu hesablamanın düzgün olmadığını deyən mütəxəssis qeyd edib ki, qanunvericiliyə əsasən, keçmiş iş ilinə görə gəlir vergisi hesablanarkən Vergi Məcəlləsinin 102.1.6-cı maddəsinə uyğun olaraq, azadolma çıxıldıqdan sonra gəlir vergisinin hesablanması düzgündür. Cari iş ilinə görə hesablanmış əməkhaqqı və kompensasiyadan Vergi Məcəlləsinin 102.1.6-cı maddəsi tətbiq olunmaqla ayrı-ayrılıqda gəlir vergisi hesablanmalıdır.

**Misal:**

Cari iş ilinə görə hesablanmış kompensasiya 1.200.00 manat və cari ayın əməkhaqqı 1.300.00 manatdırsa, gəlir vergisi aşağıdakı kimi hesablanmalıdır:

İşçinin aylıq gəliri: 1300+1200-2500.00;

Gəlir vergisinin hesablanması: (1300-173) + (1200-173) * 14%.

*Hazırladı:*
**F. İKRAMQIZI**

# Qobustanda korporativ tədbir

Kollektivdə komandaqurma fəaliyyətinin artırılması, motivasiya səviyyəsinin yüksəldilməsi, əməkdaşlıq və sağlam iş mühitinin inkişaf etdirilməsi məqsədilə təşkil edilən korporativ tədbirlər işçilərin istirahətinin səmərəli təşkili ilə yanaşı, onların bir-birlərinə qarşı səmimiyyətini, şəbəkələşməsini və ünsiyyətini artırır, iş mühitində peşəkar əlaqələrin möhkəmləndirilməsinə səbəb olur. Vergilər Nazirliyinin öz əməkdaşları üçün təşkil etdiyi mədəni istirahət proqramları çərçivəsində oktyabrın 20-də Qobustan dövlət tarixi-bədii qoruğuna - Azərbaycan ərazisində arxeoloji abidələr kompleksinin mühafizə edildiyi məkana səfəri də bu baxımdan səmərəli və yaddaqalan oldu.

Yolboyu əməkdaşlar arasında keçirilən interaktiv oyunlar, maraqlı viktorinalar vaxtımızın səmərəli və şən keçməsinə səbəb olmaqla yanaşı, həm də müəyyən biliklər əldə etməyimiz üçün bir vasitə oldu. Korporativ komanda oyununda təqdim olunan ümumi sual bloku dünya məşhurlarının həyatı, tarixi məkanlar və tikililərlə bağlı maraqlı hadisələri əhatə edirdi.

Nəhayət, paytaxt Bakıdan 56 km aralıda yerləşən Qobustan qoruğuna çatdıq.Tur iştirakçıları əvvəlcə Qobustan qapalı interaktiv muzeyinə daxil olaraq, Qobustanda yerləşən Böyükdaş, Kiçikdaş, Cınqırdağ, Şonqardağ dağlarında daş dövründən tutmuş bütün sonrakı dövrlərdə insanların sıx məskunlaşması, qayaüstü rəsmlər, məzar daşları və çox aydın görünən qədim kromlexlər (oymalar) haqqında məlumat aldılar. Burada 537 hektar əraziyə səpələnmiş petroqliflərin sayı 400 mindən çoxdur. İştirakçılar interaktiv təsvir vasitəsilə tanınmış Norveç tədqiqatçısı və səyyahı Tur Heyerdalın Qobustan petroqliflərini bir neçə dəfə tədqiq etməsi və qayaların üzərindəki qayıq təsvirlərinin bütün dünyada ən qədim təsvir olduğunu sübuta yetirməsi barədə məlumatlandırıldı.

Sonra açıq səma altında yerləşən «Qobustan» Tarixi-İncəsənət qoruğuna maraqlı ekskursiyamız başladı. Sirli mağaralarla, «Xoşbəxtlik» daşı, qayaüstü cizgi-təsvirlərlə, yazı və piktoqramlarla, «Fulminata» (ildırım sürətli) ləqəbli Roma imperatoru Domisianın legionu tərəfindən qoyulmuş, üzərində latın dilində yazılar həkk olunmuş daş lövhələrlə tanış olduq.



**Tur iştirakçılarının təəssüratları...**

♦ *Tural Hüseynov:* «Həqiqətən də çox gözəl səfər idi. Sanki həyatımda yeni bir səhifə açıldı. İstərdim ki, bu cür ekskursiyalar Azərbaycanın digər guşələrinə də təşkil edilsin. Bütün bunlar, əlbəttə ki, kollektivdə daha səmimi və sağlam münasibətlərə səbəb olur».

♦ *Rəşad Qarayev:* «Bu gün nazirliyin bir qrup əməkdaşı çox maraqlı bir tədbirdə iştirak etdi. İstər yolboyu keçirdiyimiz viktorinalar, Qobustan qoruğunda keçirdiyimiz maraqlı anlar heç vaxt hafizəmdən silinməyəcək».

♦ *Ramiz Qasımzadə:* «Səfər təəssüratım çox gözəldir. Bu cür sosial layihələrin həyata keçirilməsinə görə təşkilatçılara minnətdarlığımı bildirirəm. Belə tədbirlər işçilərin əmək qabiliyyətini daha da yüksəldir, əməkdaşlar arasında sosiallaşmaya, ünsiyyətin artmasına, səmimi münasibətlərə səbəb olur ki, bu da dolayısı ilə kollektivdə daha məhsuldar işgüzar mühitin yaranmasına gətirib çıxarır».

♦ *Almaz Quliyeva:* «Bu cür sosial tədbirlər kollektivin əmək məhsuldarlığının yüksəlməsinə, əhval-ruhiyyənin yaxşılaşmasına çox gözəl təsir edir. İnsanlar vaxtlarını səmərəli keçirməklə yanaşı, bir-birini daha yaxından tanıyırlar, səmimi münasibət qururlar».

♦ *Günay Ağayeva:* «Belə tədbirlər nə qədər davamlı olsa, əməkdaşlar arasında bir o qədər mehribanlıq, ünsiyyət, səmimiyyət yaranar. İndi biz yeni iş həftəsinə daha yüksək əhval-ruhiyyədə qayıdacaq, daha pozitiv abhavada işləyəcəyik».

♦ *Elmir Ramazanov:* «Maraqlıdır ki, bu səfərdə iştirak edənlərin əksəriyyəti adi vaxtlarda bir-birini gördükdə, bəlkə heç salamlaşmırdılar da. Amma indi hamı birlikdə deyib-gülür, əylənir, gözəl ünsiyyət qurur».

♦ *Arif Baxışzadə:* «Fərqli bir gün keçirdik. Gündəlik gərginlikdən, həftənin stresindən bir qədər uzaqlaşdıq. Davamlı olmasını istərdik».

♦ *Nazlı Rəhimova:* «İlk dəfə olaraqbu cür korporativ tədbirdə iştirak edirdim. Çox şadam ki, belə bir kollektivdə çalışıram».

♦ *Ayşən Məmmədova:* «Bugünkü səyahətimizdən çox razı qaldım. Kollektivimizdə indiyədək də səmimiyyət var idi, amma bu tədbir vasitəsilə münasibətlərimiz daha da istiləşdi. Düzü, ilk dəfədir Qobustana gəlirəm, bu baxımdan da təşkilatçılara təşəkkür edirəm. Bu tədbiri həm Azərbaycanımızın yenidən kəşfi, həm gözəl səyahət, eləcə də mehriban görüş adlandırardım».

♦ *Ramil Nəcəfov:* «Tədbir çox gözəl təşkil olunmuşdu. Düşünürəm ki, Azərbaycanın gəzməli-görməli yerlərinə bir neçə günlük tur-gəzintilər işçilərin istirahət günlərini daha səmərəli keçirməsinə kömək edərdi».

**FƏXRİYYƏ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə
## BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

**2018-ci il yanvarın 1-dən** etibarən, statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim olunmalıdır.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim olunması ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

«Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura «Onlayn rejimdə» Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən «Asan imza») vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə olunmaqla «Oflayn rejimdə» tərtib edildikdən və elektron imza (o cümlədən «Asan imza») vasitəsilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi**

miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və ya vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# AMEA İqtisadiyyat İnstitutunun yubileyi qeyd edilib

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İqtisadiyyat İnstitutunun 60 illik yubileyi münasibətilə keçirilmiş tədbirdə akademiyanın rəhbərliyi, Vergilər Nazirliyinin və müxtəlif dövlət orqanlarının nümayəndələri, Milli Məclisin üzvləri, ali təhsil müəssisələrinin rəhbərləri, tanınmış iqtisadçı-alimlər, Çin, Gürcüstan, Ukrayna, Qazaxıstan və Qırğızıstanın dövlət rəsmiləri iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə bildirib ki, İqtisadiyyat İnstitutu ötən 60 ildə şərəfli və zəngin tarixi inkişaf yolu keçib, Azərbaycan iqtisad elminin və bütövlükdə respublikamızın iqtisadiyyatının inkişafına böyük töhfə verib. «İqtisadiyyat İnstitutu respublikamızda iqtisadi tədqiqatların əsas koordinatoru, iqtisad elmimizin flaqmanıdır».

İnstitutun direktoru, professor Nazim Müzəffərli son illər bu elm ocağının həyatında baş verən yeniliklərdən, əldə olunan mühüm nəticələrdən və həyata keçirilən məqsədyönlü islahatlardan, hökumət qurumlarının, xarici elmi dairələrin diqqətini çəkən elmi tədqiqatlardan, dövlət proqramlarının hazırlanması istiqamətində rəsmi qurumlarla sıx əməkdaşlıqdan danışıb. Bildirib ki, qarşıda duran əsas hədəf yaxın perspektivdə institutun Azərbaycanda fundamental iqtisadi tədqiqatların real mərkəzinə və birbaşa əlaqələndiricisinə, hökumətin kollegial ekspertinə və məsləhətçisinə çevrilməsinə nail olmaqdır.

Tədbirdə bir neçə xarici elmi müəssisə ilə birgə tədqiqatların aparılması ilə bağlı müqavilələr imzalanıb.

Qeyd edək ki, İqtisadiyyat İnstitutunun fəaliyyəti dövlət başçısı tərəfindən də yüksək dəyərləndirilib. Azərbaycan Prezidentinin 2018-ci il 16 oktyabr tarixli sərəncamları ilə iqtisad elminin inkişafındakı xidmətlərinə görə institutun 5 əməkdaşı «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu», 2 nəfəri isə «Tərəqqi» medalı ilə təltif edilib.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Türkiyədə notariuslar vergi ödənişində yüksək nəticələr göstərirlər

Türkiyədə fəaliyyət göstərən notariuslar 2017-ci ildə ümumilikdə 2 milyard 726 milyon lirə (814 milyon 842 min 891 manat), 2018-ci ilin əvvəlindən oktyabr ayına qədər isə 2 milyard 119 milyon lirə (633 milyon 401 min 352 manat) vergi toplayaraq dövlət xəzinəsinə köçürmüşlər.

Türkiyə Notariuslar Birliyinin başqanı Dursun Cin notariuslarda aparılan əməliyyatlar ilə bağlı dövlətə əhəmiyyətli məbləğdə vergi köçürüldüyünü bildirərək, bu qurumun ölkə iqtisadiyyatına böyük töhfə verdiyini vurğulamışdır: «Notariuslar vətəndaşlarımızın sənədlərinin hüquqi təhlükəsizliyini qorumaqla yanaşı, dövlət üçün də vergi yığırlar». Onun sözlərinə görə, notariuslar tərəfindən son beş ildə dövlət büdcəsinə 13 milyard 801 milyon lirə (4 milyard 125 milyon 328 min 960 manat) vergi daxil olmuşdur: «Vətəndaşların notariuslarda apardıqları əməliyyatlardan tutulan haqların böyük hissəsi dövlətə aid vergilərdir. Həmin məbləğlər qanunda müəyyənləşdirilmiş müddətlərdə vergi orqanlarına ödənilir. Notariuslar həm vergi yükünün yüngülləşdirilməsində, həm də ixtilafların qarşısının alınmasında önəmli bir vəzifəni yerinə yetirməklə yanaşı, həm də sanki dövlətin bir vergi orqanı kimi fəaliyyət göstərməkdədirlər».

## Yaponiya bir neçə ölkə ilə vergi sazişlərində dəyişiklik etməlidir

Yaponiya hökumətinin yaydığı açıqlamada bildirilmişdir ki, həm Yaponiya, həm də tərəfdaş ölkələr OECD tərəfindən hazırlanmış çoxtərəfli vergi sazişini ratifikasiya etdiklərinə görə, həmin ölkələrlə Yaponiya arasında əvvəldən bağlanmış vergi sazişləri də yenilənməlidir.

Hökumətin açıqlamasına əsasən, üç ölkə - Avstraliya, Slovakiya və Fransa, eləcə də Yaponiya vergi qanunvericiliyinə birbaşa aidiyyəti olan BEPS (vergi bazasının aşınması və gəlirlərin yerinin dəyişdirilməsi) sxemi ilə bağlı çoxtərəfli konvensiyanı ratifikasiya etmişlər ki, bu da ikitərəfli münasibətlərdə bəzi yeni öhdəliklər yaradır. Həmin öhdəliklərin yerinə yetirilməsi üçünsə mövcud sazişlərdə dəyişiklər edilməsi zəruridir. Dəyişikliklərin 2019-cu il yanvarın 1-də qüvvəyə minməsi planlaşdırılır.

Qeyd edək ki, BEPS layihəsi çərçivəsində yeni müddəalar 2015-ci ildə hazırlanmış, OECD ölkələri və G20 üzvləri ilə razılaşdırılmışdı.

## Fransada həkimlər alkoqollu içkilərə vergini artırmağı təklif edirlər

Aralarında alkoqol aludəçiliyinə qarşı mübarizə qurumlarının da nümayəndələri olan həkimlər Fransanın səhiyyə naziri Anyez Buzinə açıq məktub ünvanlayaraq alkoqollu içkilərə tətbiq edilən verginin dərəcəsinin artırılmasını xahiş etmişlər. «Hörmətli nazir, fransız xalqını alkoqoldan qoruyun» başlıqlı məktubda Fransada alkoqolun zərərlərinə və ölkə əhalisinin gələcəyi baxımından yaratdığı təhlükələrə qarşı kifayət qədər mübarizə aparılmadığı bildirilmişdir. Ölkədə siqaret üçün tətbiq edilən verginin artırılmasından sonra siqaretin qiymətlərinin artdığı və bunun sayəsində 1 milyon insanın siqareti tərgitdiyinə diqqət yönəldilən məktubda eyni şəkildə alkoqol və alkoqol məhsullarına da daha yüksək vergi tətbiq edilməsi təklif olunmuşdur.

Məktubda bildirilmişdir ki, ölkədə ildə 49 min insan alkoqoldan asılı olduğuna görə vəfat edir, xərçəng xəstəliyinin yaranma səbəbləri arasında alkoqol ikinci yeri tutur, 15-30 yaş arasında ölüm və erkən yaşlanmanın isə birinci səbəbkarı alkoqoldur. Məktubda qadınlara və uşaqlara qarşı zorakılığın yarıdan çoxunda alkoqollu içkilərin rolu olduğu xüsusi vurğulanaraq qeyd edilmişdir ki, ölkədə alkoqol aludəçiliyinin illik sosial zərəri 120 milyon avro təşkil edir.

## Özbəkistana rüsumsuz gətirilən məhsulların norması məhdudlaşdırılıb

Özbəkistan Nazirlər Kabineti ölkəyə fiziki şəxslər tərəfindən avtomobil, dəmir və su yolu ilə gömrük rüsumu tətbiq edilmədən gətirilən malların kəmiyyət normalarında dəyişiklik edilməsi barədə qərar qəbul etmişdir. Sənədə əsasən, əlavə yığımlar tətbiq edilmədən keçirilən malları indiyədək ayda bir dəfə gətirmək mümkün olduğu halda, bundan sonra altı ayda bir dəfə gətirmək mümkün olacaq. Siyahıda məişət və ofis texnikasının 20 növü göstərilmişdir. Buraya soyuducular, dondurucular, paltaryuyan maşınlar, qaz və elektrik plitələri, televizorlar, mikrodalğalı sobalar, ətçəkən maşınlar, ütülər, fenlər, mətbəx kombaynları, telefon aparatları, kompüter texnikası, printerlər və s. daxildir.

Bununla yanaşı, istehlak mallarının çəkisi 2 kiloqrama qədər olan digər növlərinin bir təqvim ayı ərzində rüsumsuz keçirilməsinə icazə verilir: bu şərtlə ki, ümumi çəki 10 kiloqramdan artıq olmasın.

İndiyədək özbəkistanlılar ölkəyə hər ay 1 ədəd məişət və kompüter texnikası gətirə bilərdilər. Digər malları isə sutka ərzində 2 kiloqram hüdudunda (ümumi çəki 10 kiloramdan çox olmamaqla) gətirməyə icazə verilirdi.

## OECD «vətəndaşlıq satan» ölkələrin siyahısını açıqlayıb



İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) investisiya qarşılığında vətəndaşlıq və müddətsiz yaşamaq hüququ verərək vergidən yayınma ilə mübarizə səylərinə ziyan vuran 21 ölkənin adını ictimaiyyətə açıqlamışdır. «Qara siyahı»da Malta, Monako, Kipr kimi Aralıq dənizi ölkələri, eləcə də Qətər, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri kimi Körfəz ölkələrinin adları var.

OECD-nin açıqladığı hesabatda 100 ölkənin vətəndaşlıq və müddətsiz yaşamaq hüququnun verilməsi proqramları təhlil edilmişdir. Mərkəzi qərargahı Parisdə yerləşən təşkilatın açıqlamasına əsasən, vətəndaşlıq hüququ almaq üçün 21 ölkəyə ona görə üstünlük verilir ki, orada xaricdəki maliyyə qoyuluşlarından gələn gəlir qarşılığında az vergi tutulur, eləcə də vətəndaşlıq hüququ əldə etmək üçün insanlardan həmin ölkələrdə müəyyən müddət məcburi yaşamaq tələbi irəli sürülmür.

OECD mütəxəssislərinin rəyinə görə, əcnəbilər vəqf fondlarına ianə qoyaraq və ya mülk, yaxud dövlət qiymətli kağızları alaraq əvvəllər heç zaman yaşamadıqları ölkələrin vətəndaşı ola bilirlər. Hesabatda bu vəziyyətin vətəndaşlığı kommersiya əmtəəsinə çevirən 3 milyard dollarlıq bazar əmələ gətirdiyi barədə xəbərdarlıq edilmişdir. OECD hesab edir ki, ikinci vətəndaşlıq hüququnun bu yolla alınması xaricdə saxladıqları sərvətlərini gizlətmək, bununla da vergidən yayınmaq istəyənlər tərəfindən pis məqsədlə istifadə edilə bilər.

Hesabatda Avropa İttifaqının üzvü olduğuna görə vətəndaşlıq almaq məsələsində Maltaya daha böyük marağın olduğu göstərilmişdir. 2014-cü ildən bəri 700-dən artıq şəxs bu cür yollarla Maltadan vətəndaşlıq almışdır. Onların çoxu Rusiya, digər keçmiş sovet respublikaları, Çin və Orta Şərq ölkələrinin vətəndaşlarıdır.

OECD-nin «qara siyahı»sında Qəraib hövzəsi ölkələrinin - Antiqua və Barbuda, Baham adaları, Dominika, Qrenada, Sant Luisa, San Kitts və Nevis adalarının adları var. Bundan başqa, siyahıda Kolumbiya, Mauritius, Montserrat, Panama, Malayziya, Seyşel adaları, Turks və Kaikos adaları və Vanuatu kimi yurisdiksiyalara da rast gəlinir.

Hesabatda qeyd edilmişdir ki, bu cür sxemlər cinayətkarlar və ya sanksiyalardan boyun qaçıran insanlar üçün əlçatan olduğuna görə siyasətçilər, hüquq-mühafizə və dövlət təhlükəsizlik orqanları arasında ciddi narahatlıq yaradır.

«Transparency International» (Beynəlxalq Şəffaflıq Təşkilatı) və «Global Witness» (Qlobal Şahid) adlı vətəndaş cəmiyyəti qurumlarının nəşr etdirdikləri birgə hesabatda Avropa İttifaqından son on il ərzində qeyri-şəffaf şərtlər altında 100 min nəfərə müddətsiz yaşamaq hüququ, 6 min nəfərə isə vətəndaşlıq hüququ verildiyi göstərilmişdir.

## Fransa və Almaniya internet nəhənglərinə qarşı

Fransanın iqtisadiyyat naziri Bruno Le Mari internet nəhənglərinin Avropa İttifaqı üzvü olan ölkələrdə əldə etdikləri gəlirlərdən vergi tutulması məsələsi ilə bağlı ilin sonuna qədər Almaniya ilə birlikdə həll yolu tapacaqlarını bəyan etmişdir. Qeyd edək ki, hələ keçən ilin sentyabr ayında Fransa Prezidenti Emmanuel Markon açıqlama verərək beynəlxalq internet şirkətlərinin Aİ-yə üzv ölkələrdə əldə etdikləri gəlirlərin qarşılığı olaraq vergiyə cəlb olumasının zəruriliyini bildirmişdi. O, «oyunun qaydalarına əməl etməyən internet nəhəngləri ilə əlaqədar daha təsirli tənzimləmələr aparılmasını istəyirik», - demişdi. «Google», «Apple», «Facebook» və «Amazon» kimi şirkətlər Avropa ictimaiyyəti arasında gəlirlərini əldə etdikləri ölkədə deyil, daha aşağı vergi ödəmələrinə şərait yaradan ölkədə bəyan etdiklərinə görə tənqid hədəfindədirlər.

## ABŞ-da federal büdcə kəsiri son yeddi ilin rekord həddinə çatıb

ABŞ Xəzinə Nazirliyi xərcləmələrin artırılmasını və vergi gəlirlərinin azalmasını səbəb göstərərək, dövlətin federal büdcəsindəki kəsirin Prezident Obamanın dövrü ilə müqayisədə 17 faiz artdığını bildirmişdir. Hazırda ABŞ-ın büdcə kəsiri 779 milyard dollar təşkil edir. Konqresin büdcə idarəsi bəzi ödəmələrin maliyyə ilinin sonunda gələcək ilə keçirilməyəcəyi təqdirdə, kəsirin 113 milyard əvəzinə 162 milyarda çatacağını bəyan etmişdir.

Senatın federal büdcəyə məsuliyyət daşıyan müşahidə qrupunun rəhbəri Maya MakGinnes isə büdcə kəsirinin sürətlə yüksəldiyini, bu ilin kəsirinin hər ailə başına 6 min 200 dollar təşkil etdiyini bildirmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Səlcuqlar dövrünə aid irsi rütbə. Şəmkir rayonunda kənd; 2.Gəmi və təyyarədə sükan; 3.Üz tərəfində burulmuş xovları olan üst paltarlıq yun parça; 4.Almaniyada çay; 5.İt cinsi; 6.Pul vahidi; 9.Azərbaycan müğənnisi, bəstəkarı. Tanınmış xanəndə və pedaqoqun adı; 13.Nigeriyanın cənub-şərqində xalq. Tərcümədə «meşə sakinləri» mənasını verir; 15.Təbii ftoridlər sinfindən nadir mineral. Emal və şüşə istehsalında istifadə olunur; 16.İnsanın bədənində olan sümüklərin məcmusu; 17.Ancaq mikroskopla görünə bilən birhüceyrəli orqanizm, bakteriya; 18.Yenidən, bir daha; 20.Subtropik yerlərdə bitən həmişəyaşıl sitrus ağacı və bu ağacın yumurtaşəkilli turşməzə, sarı meyvəsi; 21.İspan rəssamı. Romantizm dövrünün ən parlaq nümayəndəsi.

**Soldan sağa:** 1.Rusiya Federasiyasının Krasnodar diyarında şəhər; 5.Kamboca yaxınlığında, Siam körfəzində ada; 7.Fizikanın bölməsi; 8.Avropa qitəsində göl; 10.Rəngarəng, ala-bəzək; 11.İtaliyanın 1948-ci il Konstitusiyası ilə qismən regional muxtariyyət verilmiş 20 regionundan biri; 12.Azərbaycanın bariton səsli opera müğənnisi, əməkdar artist. Rusiyanın Dövlət Akademik Böyük Teatrın ilk azərbaycanlı solistinin adı; 14.Ağ buğda unundan bişirilən kökə; 19.Uzunqanadkimilər dəstəsinə aid yeganə quş fəsiləsi. Bu fəsiləyə mənsub quşlar arxaya uça bilir; 21.Alıcıya göndərilən və ya buraxılan malların adı, növü, miqdarı, qiyməti yazılmış siyahını göstərən sənəd; 22.Tibet, Monqolustan və Buryatiyada budda rahibi; 23.Avtomobil markası; 24.Min kiloqram; 25.1704-cü ildən Böyük Britaniyaya məxsus Pireney yarımadası sahilində yerləşən ərazi.



İspan rəssamın ən məşhur rəsmlərdən biri:
*«Çətir». 1777-ci il.*
*Prado muzeyi. İspaniya, Madrid*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ruhani; 2.Formula; 3.Eridu; 4.Taenqa; 5.Panda; 6.Yanvar; 9.Reno; 13.Rels; 15.Eskvayr; 16.Tarxan; 17.İncəsu; 18.Atlant; 20.Omnya; 21.Triko. **Soldan sağa:** 1.Reflektor; 5.Pay; 7.Hürriyet; 8.Onon; 10.Nauru; 11.Qrenada; 12.Taurt; 14.Qogen (Pol); 19.Apollon; 21.Tokat; 22.Xına; 23.Gəmiqaya; 24.NEA; 25.Plutokrat.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

## idman

# Azərbaycan millisi «Buenos-Ayres 2018»i altı medalla başa vurdu



Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına yekun vurulub. 206 ölkədən 4 mindən artıq idmançının qatıldığı olimpiadada 29 qızıl, 18 gümüş və 12 bürünc medal qazanan Rusiya millisi komanda hesabında birinci olub. Çin (18-9-9) ikinci, Yaponiya (15-12-12) üçüncü, Macarıstan (12-7-5) dördüncü, İtaliya (11-10-13) isə beşinci yerdə qərarlaşıb. Ümumilikdə, yarışlarda 92 ölkənin idmançıları medal qazanıblar.

On yeddi idmançı ilə Olimpiya Oyunlarına qatılan Azərbaycanın milli komandası 2-si qızıl, 1-i gümüş və 3-ü bürünc olmaqla 6 medal qazanıb. Qızıl medalları Azərbaycanın aktivinə cüdoçu Vüqar Talıbov (66 kq) və sərbəst güləşçi Turan Bayramov (65 kq) yazdırıblar. Ağırlıqqaldırma yarışında çıxış edən Tarmenxan Babayev (85 kq) olimpiadanın gümüş medalına sahib olub. Bürünc medallara isə taekvondoçu Cavad Ağayev (63 kq), boksçu Nurlan Səfərov (60 kq) və güləşçi Şahanə Nəzərova (43 kq) layiq görülüblər. Bədii gimnastımız Yelizaveta Luzanın olimpiadada qarışıq komandanın tərkibində qazandığı qızıl medal millimizin aktivinə yazılmayıb. Beynəlxalq Olimpiya Komitəsinin qərarına əsasən, onun medalı ümumi sıralamada komandamızın hesabında göstərilməyib. Beləliklə, Azərbaycan milli komandası 206 ölkənin qatıldığı olimpiadanın medal sıralamasında 33-34-cü yerləri bölüşüb. Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarına 2022-ci ildə Seneqalın paytaxtı Dakar ev sahibliyi edəcək.

# FİFA-dan referimizə yüksək etimad



UEFA Avropa Liqasının «A» qrupunda oktyabrın 25-də keçiriləcək «Sürix» (İsveçrə)- «Bayer Leverkuzen» (Almaniya) oyununu azərbaycanlı FIFA referisi Əliyar Ağayev idarə edəcək. Onun köməkçiləri isə Zeynal Zeynalov və Rza Məmmədov olacaqlar. Dördüncü hakim funksiyasını Mübariz Haşımov yerinə yetirəcək. Əlavə köməkçi hakimlər isə Rəhim Həsənov və Orxan Məmmədov olacaqlar. Təqdirəlayiq haldır ki, son dövrlər gənc referimiz Ə.Ağayev FİFA və UEFA-nın ən perspektivli hakimlərindən biri kimi, mütəmadi olaraq, mötəbər turnirlərə təyinat alır.

# Dünya çempionatında ilk medal kapitanımızdan gəldi

Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə dünya çempionatı davam edir. Azərbaycanın sərbəst güləş üzrə kapitanı Cəbrayıl Həsənov çempionatın gümüş medalını qazanıb.




Çempionatın ikinci yarış günündə 57, 65, 79 və 92 kiloqram çəki dərəcələrində çıxış edən güləşçilər mübarizə aparıblar.

Mübarizəyə səkkizdəbir finaldan qoşulan Cəbrayıl Həsənov (79 kq) çətinlik çəkmədən Puerto-Riko idmançısına qalib gəlib. Yığmamızın kapitanı dörddəbir finalda Belarus təmsilçisi üzərində də inamlı qələbə qazanaraq yarımfinala adlayan ilk güləşçimiz olub. Finalın bir addımlığında Cəbrayıl əsl əzmkarlıq nümayiş etdirib. İranlı güləşçi 3:0 hesabı ilə önə keçsə də, son yarım dəqiqədə möhtəşəm geridönüş edən həmyerlimiz karyerasında ilk dəfə finala yüksəlib.

İdmançımız oktyabrın 22-də amerikalı Kayl Duqlas Deyklə qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən görüş rəqibin qələbəsi ilə başa çatıb. Beləliklə, C.Həsənov karyerasında ilk dəfə olaraq dünya çempionatında ikinci yerə yiyələnib.

# Xanım sablyaçımız Türkiyədə bürünc medal qazandı

Antalyada qılıncoynatma üzrə «B» kateqoriyalı «Satellite» turnirinə yekun vurulub. Sablya üzrə qadınlardan ibarət yığma komandamızın üzvü Səbinə Kərimova turnirin bürünc medalına sahib olub.

Qrup mərhələsində keçirdiyi 6 görüşdən 5-də qələbə qazanan idmançımız uğurlu çıxışın davamını pley-offda da gətirib. Səkkizdəbir finalda digər təmsilçimiz Aysel Əhədovaya qalib gələn S.Kərimova növbəti mərhələdə Türkiyə idmançısı Aylin Çakırı məğlub edib. Yarımfinala yüksəlməklə turnirin bürünc medalını təmin edən sablyaçımız finalın bir addımlığında polşalı Marta Pudaya uduzub.

Digər təmsilçilərimizdən turnirin 1/4 finalınadək irəliləyən Sevil Bünyatova yarışı 5-ci sırada tamamlayıb. Mübarizəni 1/8 finalda dayandıran Sevinc Bünyatova da ilk 10-luqda yer almağı bacarıb.



## mozaika

cəmiyyət

# «The Guardian» Xınalıqdan yazıb



İngiltərənin məşhur «The Guardian nəşri qeyri-adi macəra yaşamaq istəyənlər üçün Avropanın 10 ən yaxşı məntəqəsinin siyahısını dərc edib. Siyahıda Qubanın dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıq kəndinin də adı var. Oxucuların rəylərinə əsasən müəyyənləşdirilən siyahıdakı hər bir məkan haqqında qısa məlumat və fotoşəkil də dərc edilib.

Xınalıq haqqında dərc olunan məlumatda Azərbaycanın ən yüksək kəndinin Qafqaz dağlarının zirvəsində yerləşdiyi, əhalisinin heyvandarlıqla məşğul olduğu qeyd edilib. Məqalədə sıldırım qayalar arasından, dərin dərələrdən keçən Xınalıq yolunun turistlərə ekstrim yaşatdığı bildirilir. «The Guardian yazır ki, Qubadan Xınalığa 18 funt sterlinq xərcləməklə getmək olar. Qonaqpərvər kənd sakinlərinin evində gecələmək və ləziz yeməklərdən dadmaq üçün də bir o qədər xərc tələb olunur.

Qeyd edək ki, Xınalıq kəndi Qubanın rayon mərkəzindən 65 kilometr məsafədə yerləşir. Bu kənd UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Kənd ərazisi dövlət tarix-memarlıq və etnoqrafik qoruq elan olunub.

sağlamlıq

# Vegetarian həyat tərzi heç də həmişə məqbul deyil

Müasir formada olmasa da, antik dövrdə də vegetarianlıq elementləri olub. Həmin dövrün məlumatlarında müəyyən xəstəliklər zamanı vegetarianlığa bənzər pəhriz növlərinin tövsiyə olunması məlumdur. Lakin bəzi xəstəliklərdə heyvan mənşəli məhsullardan istifadə edilməsi vacibdir.

Azərbaycan Tibb Universitetinin qidalanma və kommunal gigiyena kafedrasının müdiri İbrahim Əhmədov deyib: «Vegetarianlıq növləri hər bir orqanizmə uyğun seçilməlidir. Məsələn, orqanizmdə turşuluq yüksəkdirsə, vegetarianlığın tətbiqi müsbət nəticə verir. Ciddi vegetarianlıq podaqra və böyrək daşı xəstəliklərində geniş tətbiq olunan vasitədir. Lakin ürək-damar sistemi xəstəlikləri, qaraciyər patologiyası, beyin qan dövranı pozuntuları zamanı eyni səviyyədə yanaşmaq düzgün deyil. Uşaqlar, inkişafda olan yeniyetmələr və çəki azlığı olanlar üçün həmin rejimə əməl etmək məqbul sayılmır».

İbrahim Əhmədovun dediyinə görə, bəzi ciddi xəstəliklər zamanı vegetarianlığın müəyyən növləri nəinki məsləhət görülür, hətta vacib hesab edilir: «Bitki mənşəli və süd məhsulları ilə qidalanma, demək olar ki, bütün xəstəliklərdə məqsədəuyğundur».

ekologiya

# Dünyada ən böyük...

Portuqaliyanın kiçik şəhəri olan Orikada Avropanın ən böyük günəş elektrik stansiyası işə salınıb. Stansiya 25 min ailəni elektrik enerjisi ilə təmin edə biləcək.

Adi istilik elektrik stansiyaları ilə müqayisədə ekoloji təmiz enerji istehsal edən günəş elektrik stansiyası atmosferə ildə 50 min ton daha az karbon qazı buraxır. Yeni elektrik stansiyasının işə salınması ilə Portuqaliya, demək olar ki, 2020-ci ilədək bərpaolunan enerji mənbələri üzrə öz məqsədlərinə çatıb. Portuqaliyada bərpaolunan enerjinin payı 29 faiz təşkil edir, 2020-ci ilədək bu, 31 faizə çatmalıdır.

«Avrostat» Avropa Statistika İdarəsinin məlumatına görə, hazırda Avropa İttifaqında hasil edilən bütün enerjinin 17 faizi bərpaolunan mənbələr, o cümlədən günəş şüaları hesabına istehsal olunur. 2020-ci ilədək bu pay 20 faizə qədər artmalıdır. Qeyd edək ki, artıq Avropa İttifaqının 11 ölkəsi 2020-ci il üçün «yaşıl» energetika üzrə milli planı yerinə yetirib.

tarix

# Repressiya olunmuş qadınlar...

Norveç hökuməti İkinci Dünya müharibəsi dövründə alman əsgərlərlə yaxın münasibətdə olmalarına görə repressiyalara məruz qalmış qadınlardan rəsmən üzr istəyib. Krallığın baş naziri Erna Sulberq hökumətin bu üzrxahlığını Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Haqları Bəyannaməsinin 70 illiyinə həsr edilmiş tədbirdə səsləndirib.

1940-cı ilin aprel ayında Almaniya Norveçi işğal edib, orada xidmət edən əsgərlər isə norveçli qadınlardan istifadə edərək arilər nəslini artırmalı idilər, çünki SS partiyasının rəhbəri Henrix Himmlerin fikrincə, onun arilər nəslini artırmaq məqsədi güdən «Lebensborn» («Həyat mənbəyi») proqramında əsas yeri Norveç tuturdu. Belə hesab edilir ki, həmin dövrdə təqribən 50.000 norveçli qadın alman əsgərlərlə əlaqədə olub, nəticədə 10-12 min uşaq dünyaya gəlib. 1945-ci ildə Norveç azad ediləndən sonra «alman gözəlçələri» ləqəbi almış bu qadınlar öz ölkələrinə xəyanət etməkdə ittiham olunub, vətəndaş hüquqlarından məhrum edilib, məhkəməsiz həbsə alınıb, bəziləri isə hətta ölkədən çıxarılıb.

«Alman əsgərlərlə intim münasibətlərdə olmuş və ya belə münasibətlərdə olmaqda şübhə doğuran norveçli gənc qızlar və qadınlar nalayiq davranışın qurbanları olublar», - deyən Erna Sulberq sözünü belə tamamlayıb: «Biz bu qənaətə gəlmişik ki, Norveçin hakimiyyət orqanları hüququn bir əsas prinsipini pozublar. Həmin prinsipə görə, heç bir vətəndaş mühakimə olunmadan cəzalandırıla və ya öz hüquqlarından məhrum edilə bilməz. Bu gün hökumət adından üzr istəyirəm».

Qeyd edək ki, Norveç hökuməti əvvəllər bu insanlarla amansız rəftara görə təqsiri öz üzərinə götürməkdən imtina edib və belə rəftardan zərər çəkənlərə məhdud kompensasiya təklif edib. Bu hadisələrdən uzun illər sonra səslənmiş rəsmi üzrxahlığı isə yəqin ki, həmin qadınların yalnız az bir qismi eşidib.

tapıntı

# Qədim dövrün Budda heykəlləri

Laosun Savannakxet əyalətində Tad İnq Hanq ibadətgahı bərpa edilərkən oradan çox qədim dövrə aid yüzlərlə Budda heykəl-fiqurları, habelə onlarca digər dini artefaktlar aşkar edilib. Bu barədə «Vientiane Times» məlumat yayıb.

Budda heykəl-fiqurların ölçüsü 8-10 santimetrdir. Onlar qızıl, gümüş, bürünc, taxta və digər materiallardan düzəldilib. XVI əsrə aid zəngin bəzədilmiş Tad İnq Hanqın hündürlüyü təxminən 9 metrdir. O, buddistlərin ibadət yeridir. Əfsanəyə görə, Budda orada dincəlib.



robototexnika

# Robot parlamentdə çıxış edib




Yaponiyada düzəldilmiş insanabənzər robot Böyük Britaniya parlamentinin komitə üzvləri qarşısında çıxış edib. Ölkə qanunvericiləri «Softbank Group» şirkəti tərəfindən hazırlanmış «Pepper» adlı robotun ingilis dilində çıxışını böyük maraqla izləyiblər.

«Pepper» qanunvericilərə yaşlı insanlara xidmət edəcək robotların istehsalı sahəsində əldə olunmuş uğurlardan danışıb. Qeyd edib ki, layihənin məqsədi səhiyyə sisteminin üzərinə düşən ağır yükü azaltmaqdır. Eyni zamanda, bu layihə yaşlı insanlara sərbəst yaşamaqda, həyat şəraitini yaxşılaşdırmaqda və təklikdən uzaqlaşmaqda kömək edəcək.

**Müdriklər deyib ki...**

*«Əxlaqı tərbiyə edən ən nadir kitab vicdandır. Onunla tez-tez məsləhətləşmək lazımdır».*

*Blez Paskal (1623-1662)*

